# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# VII SESSİYASI İCLASININ

# PROTOKOLU № 77

*Milli Məclisin iclas salonu.*
*30 iyun 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 106 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Sahil Babayev**, Azərbaycan Respublikasının maliyyə naziri.
**Himalay Məmişov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.
**Mais Piriyev**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri.
**Azər Bayramov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.
**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.
**Rauf Səlimov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.
**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.
**Nadir Zeynalov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.
**Elçin Qədirov**, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Hüquq və daxili nəzarət şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Metrik Konvensiya”ya qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
2. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).

8. "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**1. “Metrik Konvensiya”ya qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov, Hikmət Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.19 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Sahil Babayev, Vüqar Gülməmmədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Tamam Cəfərova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Zahid Oruc, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**7. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**8. “Dövlət qulluğu haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Zahid Oruc, Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**9. "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**10. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**11. “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Zahid Oruc, Vasif Qafarov, Bəxtiyar Əliyev, Elçin Mirzəbəyli, Nigar Məmmədova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**12. “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**13. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Rövşən Muradov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Zahid Oruc, Razi Nurullayev, Fazil Mustafa, Siyavuş Novruzov, Nizami Səfərov, Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

*30 iyun 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

Yetərsay var, biz iclasa başlayırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, iyunun 22-dən 25-dək Bakıda Milli Məclisin ev sahibliyi ilə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası və sessiya ilə bağlı iclaslar uğurla keçirilmişdir.

İlk öncə qeyd etmək istərdim ki, İslam Əməkdaşlıq Təşkilatı dünyanın ən böyük beynəlxalq qurumlarından biridir və öz sıralarında 57 dövləti birləşdirir. 1969-cu ildə yaradılmış bu təşkilat müsəlman ölkələri arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, habelə islam dünyasının ümumi maraqlarının müdafiəsi üçün mühüm platforma rolunu oynayır.

Hörmətli deputatlar, təşkilatın Parlament İttifaqı Konfransının 20-ci sessiyası  Azərbaycanın islam aləmində yüksək nüfuzunu bir daha təsdiq edən mühüm beynəlxalq hadisə oldu. Tədbirdə 43 ölkədən və 11

beynəlxalq təşkilatdan 54 nümayəndə heyəti, ümumən, 500-dən çox nümayəndə iştirak etmişdir.

Sessiyanın təşkili ilə bağlı demək istəyirəm ki, nümayəndə heyətləri artıq iyunun 21-də ölkəmizdə idilər və ertəsi gündən sessiyaya hazırlıq iclasları keçirilməyə başlandı.

İcraedici komitənin 56-cı iclası, habelə 5 daimi komitənin və 3 qrupun – Asiya, Afrika və Ərəb qruplarının, eləcə də müsəlman qadın parlamentarilərinin, Müsəlman icmaları və azlıqlar alt komitəsinin, Baş Katiblər Assosiasiyasının növbəti iclasları, məsləhətləşmə görüşləri və konqresləri, digər toplantılar sessiyada müzakirələrin səmərəli təşkili baxımından çox əhəmiyyətli idi.

Hörmətli həmkarlar, iyunun 24-də 20-ci sessiyanın açılış mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sessiya iştirakçılarına müraciəti tədbirin əhəmiyyətini daha da artırdı. Müraciətdə islam ölkələrinin həmrəyliyini və iş birliyini möhkəmləndirməyin əsas prioritetləri müəyyən edilmişdir. İslam dəyərlərinin qorunması naminə birgə səylərin əhəmiyyəti vurğulanmışdır.

Hörmətli deputatlar, sessiyada İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqına sədrlik Azərbaycan Milli Məclisinə təhvil verildi. Bu, ölkəmizə göstərilən yüksək beynəlxalq etimadın yeni bir ifadəsidir və eyni zamanda, dövlətimizin müsəlman ölkələri ilə əməkdaşlığı inkişaf etdirmək sahəsində ardıcıl siyasətinin təsdiqidir.

20-ci sessiyanın sədri kimi mən açılış nitqimdə Parlament İttifaqına Milli Məclisin sədrliyi dövründə fəaliyyətimizin əsas istiqamətləri barədə danışdım. Bildirdim ki, Milli Məclis təşkilatın rolunun daha da güclənməsinə və üzv ölkələrin parlamentləri arasında iş birliyinin inkişafına çalışacaqdır. Digər məsələlərlə yanaşı, mən sülhün, dialoq və qarşılıqlı anlaşmanın

gücləndirilməsində parlament diplomatiyasının əhəmiyyətini vurğuladım. İslam dünyasının potensialını tam reallaşdırmağın və onun üzləşdiyi çətinlikləri aradan qaldırmağın yolları barədə fikirlərimi bölüşdüm.

Hörmətli deputatlar, qeyd edim ki, sessiyada nümayəndə heyətlərinin rəhbərləri və beynəlxalq təşkilatların təmsilçiləri çıxış etdilər. İki gün ərzində, ümumən, 28 çıxış səsləndi. Beynəlxalq gündəliyin aktual məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı. Parlament İttifaqının fəaliyyətini daha da təkmilləşdirməyə və üzv dövlətlərin parlamentləri arasında qarşılıqlı əlaqəni genişləndirməyə yönələn qərarlar qəbul edildi.

Hörmətli həmkarlar, tədbirin ən mühüm yekunlarından biri də Bakı Bəyannaməsinin qəbul edilməsi oldu. Bəyannamə ittifaqın üzvü olan parlamentlərin qarşılıqlı əlaqəni və əməkdaşlığı, həmrəyliyi və dialoqu daha da möhkəmləndirmək əzmini ifadə edir.

Hörmətli deputatlar, sessiya çərçivəsində Milli Məclis sədri kimi mənim bir sıra ikitərəfli görüşlərim oldu. Türkiyə, İran, İordaniya, Oman, Qətər, Yəmən, Mozambik, Niger, Şimali Kipr parlamentlərinin sədrləri, Birləşmiş Ərəb Əmirlikləri, İraq, Mərakeş, Qvineya-Bisau, Burkina Faso, Çad, Kot-d`İvuar və Mali parlamentlərinin sədr müavinləri, Qlobal Tolerantlıq və Sülh Şurasının sədri ilə danışıqlarda ikitərəfli və çoxtərəfli platformalarda iş birliyinin inkişaf etdirilməsi yolları nəzərdən keçirildi. Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində fikir mübadiləsi aparıldı.

Hörmətli həmkarlar, bunu da xüsusi vurğulamaq istərdim ki, Milli Məclisin deputatları həm 20-ci sessiyada, həm də müxtəlif komitələrin və qrupların iclaslarında və digər tədbirlərdə fəal iştirak etdilər. Onu da deyim ki, bizim hörmətli komitə sədrlərimiz təşkilatın bəzi komitə iclaslarına sədrlik də etdilər. Bununla əlaqədar mən Milli Məclis sədrinin müavini, Parlament İttifaqında nümayəndə heyətimizin rəhbəri hörmətli Rafael Hüseynova, –

Rafael müəllim indi yoxdur, o, iclasın böyük bir hissəsinə rəhbərlik etdi, – iclaslarda və müxtəlif tədbirlərdə iştirak etmiş komitə sədrlərimizə, dostluq qruplarının rəhbərlərinə və ümumiyyətlə, bütün deputatlarımıza öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli deputatlar, hesab edirəm ki, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası həm forma, həm də məzmun baxımından yüksək səviyyəli bir tədbir oldu və biz qarşıya qoyulan bütün hədəflərə nail olduq. Bununla əlaqədar mən tədbirin təşkilində əməyi olan Milli Məclis Aparatının və İşlər İdarəsinin hər bir əməkdaşına öz təşəkkürümü bildirirəm.

Hörmətli həmkarlar, bir məlumatı da nəzərinizə çatdırmaq istəyirəm ki, Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edən İordaniya Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadi, eyni zamanda, mənim dəvətimlə ölkəmizə rəsmi səfərini də həyata keçirmişdir. İordaniya parlamenti sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 21-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmişdir.

İyunun 22-də İordaniya Nümayəndələr Palatası sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Milli Məclisdə mənim də görüşüm oldu. Görüşdə parlamentlərimiz arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Parlamentlərarası əlaqələrin dərinləşməsində qarşılıqlı səfərlərin rolu və parlament dostluq qruplarının fəaliyyəti vurğulandı.

Hörmətli həmkarlar, qeyd edim ki, Azərbaycan və İordaniya parlamentlərində fəaliyyət göstərən dostluq qrupları üzvlərinin ayrıca görüşü də keçirilmişdir. Mən qrup rəhbəri, hörmətli həmkarımız Anar İsgəndərova öz minnətdarlığımı bildirirəm.

Mən yenə də  bu səfərin həyata keçirilməsində əməyi keçən hər bir deputata, Aparatın və İşlər İdarəsinin işçilərinə öz dərin  minnətdarlığımı bildirirəm.

Hörmətli həmkarlar, mənim bu tədbirlərlə bağlı məlumatım bu qədərdir. Diqqətinizə görə çox sağ olun.

İndi isə xahiş edirəm, gündəliyə münasibət bildirin. Gündəlik hamınızda var. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Biz gündəliyin məsələlərinə keçirik. Hörmətli həmkarlar, bizim gündəliyimizdə 14 məsələ var, biz onları müzakirə edəcəyik. 1-ci məsələ “Metrik Konvensiya”ya qoşulmaq haqqında  qanun layihəsidir. Xatırladım ki, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi qanunvericiliyin tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dəyər məlumat vermək üçün komitənin üzvü hörmətli Zaur Şükürova söz vermək istəyirəm. Zaur müəllim, buyurun, söz Sizindir.

**Zaur Şükürov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr.  İlk öncə Azərbaycan Respublikası Milli Məclisinin ev sahibliyi ilə İslam Əmək Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının 20-ci sessiyasının Bakıda yüksək

səviyyədə təşkili və uğurla keçirilməsi, xüsusi ilə də Parlament İttifaqına sədrliyin Milli Məclisə verilməsi münasibəti ilə təbriklərimi çatdırıram.

Prezident cənab İlham Əliyev sessiya iştirakçılarına müraciətində də qeyd edildiyi kimi, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan və dünyada milyardlarca insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan islam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilmişdir.

Hörmətli xanım sədr, inanırıq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, milli maraqlara cavab verən praqmatik xarici siyasət strategiyası çərçivəsində Sizin rəhbərliyiniz ilə Milli Məclisin uğurlu parlament diplomatiyası sayəsində İƏT Parlament İttifaqının fəaliyyətinə  mühüm töhfə veriləcək, ittifaqın rolunun möhkəmləndirilməsi və ortaq prioritetlərin inkişafı naminə bütün üzv parlamentlərlə sıx əməkdaşlıq davam etdiriləcək.

Hörmətli xanım sədr, hörmətli deputatlar, dəyərli media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisdə müzakirəyə təqdim olunan qanunla ölkəmizin qoşulması nəzərdə tutulan “Metrik Konvensiya” 1875-ci il mayın 20-də Paris şəhərində imzalanmış və 1876-cı il yanvarın 1-dən qüvvəyə minmişdir. 1875-ci ildə bu konvensiyanı ilkin olaraq 17 dövlət imzalamışdır. Əhalisinin sayına görə dünyada ilk onluğa daxil olan ölkələr, Banqladeş və Nigeriya istisna olmaqla, 67 ölkə hazırda konvensiyaya tərəf dövlətlərdir və ümumilikdə,  tərəf dövlətlərdə yaşayan əhali dünya əhalisinin təxminən 95 faizini təşkil edir. MDB məkanı üzrə Qazaxıstan, Ukrayna, Rusiya, Belarus tərəf dövlətlərdir. 36 ölkə assosiativ ölkələrdir və Azərbaycan, Gürcüstan, Ermənistan da bu dövlətlər sırasındadır.

1921-ci ildə əlavələr edilmiş konvensiya 14 maddədən, bu konvensiyanın tərkib hissəsi olan və konvensiya ilə eyni qüvvəyə və təsirə malik olan əlavə qaydalar isə 22 maddədən ibarətdir.

Konvensiya ölçmə elmində qlobal əməkdaşlıq üçün çərçivə yaratmış, müasir elm, ticarət və mühəndislikdə istifadə edilən çəki və ölçülərlə bağlı beynəlxalq miqyasda vahidliyi təmin etmişdir. Həmçinin konvensiya əsasında fiziki ölçmələri uzlaşdırmaq və tənzimləmək üçün üç əsas təşkilati struktur – dünya ölçmə standartlarını və beynəlxalq prototipləri qoruyub saxlayan, beynəlxalq hökumətlərarası təşkilat olan Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro, bu büronun fəaliyyətinə nəzarət edən və ölçmə standartlarının hazırlanmasına rəhbərliyi həyata keçirən Çəkilər və Ölçülər üzrə Beynəlxalq Komitə və ölçmə sistemində əsas dəyişikliklər barədə qərar qəbul etmək üçün müntəzəm olaraq görüşən üzv ölkələrin Çəkilər və Ölçülər üzrə Baş Konfransı təsis edilmişdir.

Konvensiyanın müddəalarına uyğun olaraq, tərəflər qərargahı Paris şəhərində yerləşən Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büronun birgə maliyyələşdirməklə yaradılmasını və saxlanılmasını öz öhdələrinə götürürlər. Konvensiyanın müddəalarına əsasən Beynəlxalq Büro Beynəlxalq Komitənin müstəsna rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərir. Konvensiyanın müvafiq maddələri ilə Beynəlxalq Büronun əsas vəzifələri, beynəlxalq prototipləri, onların nəzarət nüsxələri, saxlanma yerlərinə giriş, büronun təsisi, qurulması ilə bağlı illik xərcləri və tərəflərin üzərinə düşən məbləğ, elmi avadanlığın təkmilləşməsi, habelə konvensiyaya qoşulma qaydaları müəyyən edilir.

Konvensiyanın tərkib hissəsi olan Əlavə Qaydalar konvensiya ilə eyni qüvvəyə və təsirə malikdir. Qaydalarda Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büronun yerləşdiyi bina, laboratoriya, tərəzilər, müqayisəli cihazlar,

geodeziya xətkeşləri, illik maliyyələşdirmə hissələri, baş konfransın toplanma şərtləri, konfrans çərçivəsində səsvermə, beynəlxalq komitəyə üzvlük, büro direktorunun vəzifələri, hesabata dair tələblər və sair məsələlər tənzimlənir.

Ölkəmiz konvensiyaya qoşulduqdan sonra qeyd olunan sahədə beynəlxalq əməkdaşlığı genişləndirə biləcək və büronun bütün fəaliyyətlərində, o cümlədən ölçmələrin qlobal müqayisəliliyi ilə bağlı məsələlər üzrə qərar qəbuletmə prosesində iştirak, hər dörd ildən bir keçirilən baş konfransın iclaslarında bütün qərarlar üzrə səsvermə hüququ ilə iştirak etmək üçün milli nümayəndə heyəti göndərmək, təşkilatın 18 üzvdən ibarət İdarəetmə Şurasına – Çəkilər və Ölçülər üzrə Beynəlxalq Komitəsinə seçilmək üçün milli namizəd irəli sürmək, İdarəetmə Şurasının on məsələ üzrə Məşvərət Komitəsinin hər birində texniki müzakirə və qərar qəbuletmədə iştirak etmək üçün Azərbaycan Metrologiya İnstitutundan texniki mütəxəssisləri irəli sürmək, büronun laboratoriyaları və məşvərət komitələri tərəfindən əlaqələndirilən milli ölçmə standartlarının əsas müqayisələrində iştirak etmək üçün namizəd irəli sürməklə texniki və elmi fəaliyyətlərə çıxış, büronun laboratoriyaları tərəfindən təmin edilən kalibrləmə xidmətlərindən pulsuz istifadə etmək, Koordinasiyalı Universal Vaxtın qlobal hesablanmasına məlumatları təqdim etmək və nəhayət, təcrübə mübadiləsi məqsədi ilə mütəxəssislərini büronun laboratoriyalarına ezamiyyətə göndərmək imkanları əldə edəcək.

Hörmətli xanım sədr, hörmətli deputatlar, qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində yekdilliklə dəstəklənərək Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Komitəmizin adından hörmətli deputat həmkarlarımdan qanun layihəsini dəstəkləməyi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Zaur müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. İndi mən sözü komitənin sədri hörmətli Səməd Seyidova verirəm. Səməd müəllim, buyurun, komitənin rəyini bildirin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, Zaur müəllim qanun layihəsini çox geniş, ətraflı təqdim etdi. Nəzərə alsaq ki, Zaur müəllim bizim komitənin də üzvüdür, hesab edirəm, əlavə hansısa məlumatın çatdırılmasına ehtiyac yoxdur.

Doğrudan da, çox vacib qanun layihəsidir. Ona görə komitəmiz bunun tam lehinə öz fikrini bildirib. Qəbul olunmasını tövsiyə edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim.

Müzakirəyə keçirik. Yazılan var. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Çox sağ olun, hörmətli xanım sədr. Əslində, “Metrik Konvensiya” ölçü və çəki vasitələri üzrə standartların yaradılmasıdır. Burada mən məsələyə bir qədər başqa kontekstdən baxıram. Fransızlar vaxtı ilə Avropada mövcud olan standartları ümumiləşdirərək belə bir konvensiya yaradıblar. Əlbəttə ki, inkişaf edən Azərbaycan üçün bu, çox vacibdir. Çünki iqtisadiyyatımızın inkişafı, sənayemizin inkişafı bu vahidlərdən istifadə zərurəti yaradır.

Biz də standartlarımıza sahib çıxırıq. Elə bu günlərdə Azərbaycanda baş tutan Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibəti ilə keçirilən tədbirlər də xalqlarımızın ortaq mədəniyyətindən, türk xalqlarının ortaq dil mədəniyyətindən gələn hadisələrin bir növ standartlaşdırılmasıdır.

Azərbaycan Prezidenti Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının dövlət başçılarının XII zirvə görüşündə bu təşəbbüslə çıxış etmişdi.

Bu ideyanın standartlaşdırılması və gələcək nəsilə miras buraxılması üç mühüm məsələ ilə əlamətdardır. Birincisi, baş verən hadisə ideyanın reallığa çevrilməsidir. İkincisi, bu reallığın gələcək strategiyaya çevrilməsi məsələsidir. Ona görə də Azərbaycan Prezidenti təbrik məktubunda, – mən sitatı oxumağa çalışacağam, – qeyd edir: “Türk dünyası ailəsi böyük sivilizasiya yaradıbdır. Əcdadımızın şəninə uyğun olaraq, nüfuzlu geosiyasi proseslərdə Türk Dövlətləri Təşkilatı güc mərkəzlərindən biri olmaq yolundadır”. Deməli, biz Azərbaycanın yaratdığı imkanlar sayəsində tarixdən, ideyadan reallığa qədəm qoymuşuq. Bu ideyalar əsasında da yeni gələcəyin siyasi standartlarını yaratmalıyıq. Yəni bu gün Türkoloji Qurultayın yüzillik tədbirləri, sadəcə, dil hadisəsi üzərində məhdudlaşmamalıdır, çünki Azərbaycan Prezidenti böyük uzaqgörənliklə buna bir siyasi çətir əlavə edir. Mən düşünürəm ki, “türk dünyası bizim ailəmizdir” fikrinin daha detallı və konsepsiya halına salınacaq tezisləri buradadır. Ona görə də heç bir vasitə xalqları, dövlətləri dil qədər birləşdirmir, gələcəyi təyin etmir. Mən düşünürəm ki, keçirilən tədbirlərin əsasında məhz gələcəyin strategiyası olan Türk Dövlətləri Təşkilatı bunun üzərində qurulmalıdır.

Bu yaxınlarda Azərbaycanda Rəqəmsal İnkişaf Şurası yaradıldı və Birinci vitse-prezidentimiz Mehriban xanım bu şuraya sədr təyin edildi. Mənə elə gəlir ki, dilimizin rəqəmsallaşdırılması, dil bazasının yaradılması, yeni rəqəmsal platformada türk dillərinin hamısının ortaq orfoqrafik bazasının yaradılması məhz bu çağırış içərisində yer alan məsələlərdəndir. Nəticə etibarı ilə ortaq leksik yaddaşdan gəlib gələcəyin ortaq dilini qurmaq olar. Qoy, bu da bizim standartımız olsun.

Fransa timsalında görürük ki, yaradılan standart bu gün beynəlxalq normaya çevrilir. Bizim də yaradacağımız bu dəyərlər üzərindəki yeni gələcəyin standartları da, kim bilir, bəlkə də elə o da qlobal normalar sisteminə çevrilə bilər.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Daha çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.19 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 5 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Məsələ ilə əlaqədar bizim qonaqlarımız var. Maliyyə naziri hörmətli Sahil müəllim Babayev buradadır, hörmətli hökumət üzvləri, Hesablama Palatasının rəhbərliyi və digər vəzifəli şəxslər iclasımızda iştirak edirlər. Mən bir daha sizi salamlayıram.

Hörmətli həmkarlar, bu qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələ barədə məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, üçüncü oxunuşda komitənin rəyini təqdim edin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, 2025-ci il üzrə dövlət büdcəsinin icrasına dair qanun layihəsi və hesabat üçüncü oxunuşda təqdim olunur.

Xüsusi vurğulamaq istərdik ki, parlamentdə büdcə müzakirələri konstruktiv və məhsuldar olmaqla, büdcə prosesinin təkmilləşməsinə xidmət edir. “Dövlət büdcəsinin icrası haqqında” Qanunun qəbul edilməsi həm də icra nəticələrinə görə məsuliyyəti müəyyən edir. Bu baxımdan, bəzən “İcranın qanunla təsdiqinə nə ehtiyac var?” sualını səsləndirən həmkarlarımızın diqqətinə çatdırmaq istərdik ki, dövlət büdcəsi qanunla təsdiq edilirsə, həmin qanunun icrasının nəticələri də qanunvericilik statusuna və hüquqi qüvvəyə malik olmalıdır.

Müzakirələr çərçivəsində həmkarlarımız tərəfindən səsləndirilən fikirləri, Hesablama Palatasının təklif və tövsiyələrini də əhəmiyyətli hesab edirik. İnanırıq ki, qaldırılan məsələlər, irəli sürülən təkliflər hökumət, o cümlədən Maliyyə Nazirliyi tərəfindən həm növbəti büdcə icrası hesabatlarının hazırlanmasında, həm də gələcəkdə dövlət büdcəsi zərflərinin tərtibi zamanı nəzərə alınacaqdır.

Hörmətli həmkarlar, ölkəmizdə iqtisadi sahədə vahid dövlət siyasəti həyata keçirilir. Parlament bu siyasətin həm formalaşdırılmasında, həm də həyata keçirilməsində mühüm rol oynayır və öz töhfəsini verir. Eyni zamanda, büdcə prosesinin bütün mərhələləri üzrə həm hökumətin, həm də parlamentin ortaq məsuliyyəti var və bunun nəzərə alınması səmərəli büdcə idarəçiliyinin vacib şərtlərindən biridir.

Xatırlatmaq istərdik ki, möhtərəm cənab Prezident tərəfindən dövlət maliyyəsinin idarə olunması sahəsində həyata keçirilən islahatlar şəffaflığın, hesabatlılığın və nəticəyönümlü büdcə siyasətinin gücləndirilməsinə xidmət edir. İndiyə kimi parlamentdə apardığımız büdcə müzakirələri də məhz həmin islahatların ruhuna və məntiqinə tam uyğundur.

Aparılmış müzakirələrin nəticələrini nəzərə almaqla, hesab edirik ki, müvafiq hesabatla birlikdə təqdim edilmiş qanun layihəsi büdcə qanunvericiliyinin tələblərinə cavab verir.

Ötən ilin dövlət büdcəsi sosial-iqtisadi hədəflərin reallaşması üçün müvafiq maliyyə təminatı yaratmış, müəyyən edilmiş strateji inkişaf prioritetlərinə uyğun olaraq icra edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin üçüncü oxunuşda da qəbul edilməsini məqsədəuyğun sayır, hörmətli deputat həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, bu, üçüncü oxunuşdur. Heç kimin sözü, sualı yoxdur. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, mən keçən dəfə də demişdim. Hörmətli Sahil müəllim çıxış etmək istəyirdi. Sahil müəllim, biz Sizə indi bu imkanı veririk. Xahiş edirəm, kürsüyə buyurun.

**Sahil Babayev,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, ilk növbədə, 2025-ci ilin dövlət büdcəsinin icrasının müzakirələri zamanı səsləndirilən fikir və təkliflərə, verilən suallara və aparılan müzakirələrə görə hər bir millət vəkilinə və Hesablama Palatasına öz təşəkkürümü bildirirəm.

Bu gün biz yalnız maliyyə sənədinin icrasını deyil, həm də ölkəmizin keçən il həyata keçirdiyi məqsədyönlü sosial-iqtisadi siyasətin nəticələrini qiymətləndiririk. Dövlət büdcəsi hər bir ölkənin iqtisadi prioritetlərinin, sosial öhdəliklərinin, strateji hədəflərinin maliyyə ifadəsidir. 2025-ci ilin dövlət büdcəsinin icrası da göstərir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş inkişaf kursu mürəkkəb qlobal iqtisadi şəraitdə belə ölkəmizin dayanıqlı inkişafını, maliyyə sabitliyini və vətəndaş rifahının yüksəldilməsini təmin etmişdir.

Son illərdə dünyada geosiyasi çətinliklərə, logistika zəncirlərində pozuntulara, enerji və ərzaq bazarlarındakı dəyişkənliyin davam etməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını qorumuş, dövlət maliyyə sistemi çevik və məsuliyyətli idarəetmə prinsipləri əsasında fəaliyyət göstərmişdir. Bu nəticələrin əsasında ölkə rəhbərliyinin uzaqgörən siyasətinə, fiskal intizamın gücləndirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə və əhalinin sosial rifahının yaxşılaşdırılmasına davamlı diqqət dayanır.

Müzakirələr zamanı hörmətli deputatlar tərəfindən büdcə gəlirlərinin formalaşması, qeyri-neft sahəsinin inkişafı, büdcə xərclərinin icrası, sosial müdafiə, səhiyyə və digər istiqamətlər üzrə bir sıra məsələlər qaldırılmışdır. Səsləndirilən bütün suallar və təkliflər tərəfimizdən diqqətlə təhlil edilmişdir. İcazənizlə, büdcə göstəricilərini təkrar səsləndirməyərək hörmətli millət vəkillərimiz tərəfindən qaldırılan məsələlərə münasibət bildirmək və verilmiş sualları cavablandırmaq istərdim.

2025-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı məsələlər müzakirə edilərkən hörmətli millət vəkillərimiz tərəfindən büdcə gəlirlərinin strukturunda ənənəvi enerji sektorunun xüsusi çəkisinin hələ də yüksək olması məsələsinə toxunulmuşdur. Bildirmək istərdim ki, son illər ölkəmizdə aparılan ardıcıl islahatlar məhz qeyri-neft sektorunun davamlı inkişafını şərtləndirmişdir. Belə ki, hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə ümumi daxili məhsul 92,3 milyard manat təşkil etməklə, ümumi ÜDM-nin 71,5 faizinə bərabər olmuşdur. Bu, 2024-cü illə müqayisədə 2,7 faiz real artım deməkdir.

İcmal büdcədə qeyri-neft gəlirlərinin payı 55,2 faizə, qeyri-neft vergilərinin payı isə 25 faizə çatmışdır. Bu da əvvəlki illə müqayisədə müvafiq olaraq, 2,8 faiz bəndi və 2 faiz bəndi daha çoxdur.

Dövlət büdcəsinin qeyri-neft gəlirlərinin ümumi daxilolmalardakı xüsusi çəkisi son 5 ildə 43,3 faizdən 52 faizə yüksəlmişdir. 2026-cı ilin dövlət büdcəsində isə qeyri-neft gəlirlərinin xüsusi çəkisinin 57,4 faizə çatdırılması planlaşdırılır. Beləliklə, biz bu müsbət trayektoriyanı əldə edərək büdcə gəlirlərimizdə məhz qeyri-neft gəlirlərinin payını ciddi şəkildə artırmağı planlaşdırırıq.

Digər ana hədəfimiz isə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin cari xərclərini örtmə nisbəti idi. Bu sahədə də ciddi irəliləyiş əldə edilmişdir və

qeyri-neft gəlirlərimiz keçən il cari xərclərin 92 faizini təşkil etmişdir. Bu, proqnozla müqayisədə 7,5 faiz bəndi daha çoxdur. Hədəfimiz 2029-cu ildə bu rəqəmi 100 faizə çatdırmaqdır. Beləliklə, dövlət büdcəsinin cari xərcləri tam şəkildə qeyri-neft gəlirləri hesabına örtüləcəkdir.

Bu göstəricilərin dinamikası qeyri-neft sektorunun inkişafının və dövlət büdcəsinin neft gəlirlərindən asılılığın azaldılmasının dövlətin əsas prioritet istiqamətlərindən biri olduğunu göstərir. Qeyri-neft sektoru üzrə gəlirlərin artırılması və mənbələrinin şaxələndirilməsi istiqamətində tədbirlər davamlı olaraq həyata keçiriləcəkdir və məsələ daim nəzarətdə saxlanılacaqdır.

Müzakirələr zamanı qeyri-neft-qaz sektoru üzrə mənfəət vergisinin proqnoza qarşı 5,3 faiz daha aşağı toplanması ilə bağlı suallar verilmişdir. Bununla bağlı bildirmək istəyirik ki, qeyri-neft sektoru üzrə mənfəət vergisinin kəsirlə icra olunmasının əsas səbəbi vergi ödəyiciləri tərəfindən mənfəət vergisi üzrə hesablanmış məbləğin ƏDV üzrə artıq ödəmə ilə əvəzləşdirilməsidir.

Hesabat ili ərzində qeyri-neft sektorundan mənfəət vergisi üzrə proqnoz 219 milyon manat kəsirlə icra olunmuşdur. Lakin eyni dövrdə qeyri-neft sektorundan ƏDV üzrə daxilolmalar 4 milyard 202 milyon manat təşkil etmişdir və bu da proqnozdan 639 milyon manat və ya 18 faiz daha çoxdur. Nəticədə ƏDV və mənfəət vergisi üzrə göstəricilər birlikdə qiymətləndirildikdə biz faktiki icranın proqnozdan 420 milyon manat və ya 5,5 faiz daha çox olduğunu görürük.

Deputatlar tərəfindən qaldırılan məsələlərdən biri də 2025-ci ildə ayrılmış bir qisim vəsaitin bank hesablarında qalaraq 2026-cı ilə keçirilməsi ilə bağlı idi. Bildirmək istərdim ki, bank hesablarına köçürülən vəsaitlərin əksər hissəsini müxtəlif təşkilatların nizamnamə kapitalının artırılması, publik hüquqi şəxslərin, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin

maliyyələşdirilməsi, aqrar sahədə subsidiyaların ödənilməsi üzrə xərclər təşkil etmişdir.

Qanunvericiliyə uyğun olaraq, dövlət müəssisələrinin nizamnamə kapitalının artırılması məqsədi ilə dövlət büdcəsindən ayrılan vəsaitlər onların bank hesablarına köçürülür və il ərzində xərclənməyən hissəsi növbəti illərdə xərclərin maliyyələşdirilməsinə yönəldilir. Yəni bu, birbaşa qanunvericiliyin tələbidir və nizamnamə kapitalının artımı zamanı bu mexanizm tətbiq olunmalıdır.

Publik hüquqi şəxslərlə bağlı isə qeyd etmək istərdim ki, ötən ilin avqust ayınadək həmin təşkilatların maliyyələşdirilməsi üçün vəsaitlər “Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası”na uyğun olaraq, onların bank hesablarına köçürülürdü. Lakin həmin qaydaya cənab Prezidentin müvafiq fərmanı ilə dəyişikliklər edilmiş və nəticədə dövlət büdcəsindən publik hüquqi şəxslərə ayrılan vəsaitlərin icrası avqust ayından etibarən yalnız xəzinə müşayiəti vasitəsi ilə həyata keçirilmişdir.

Qeyd edim ki, cənab Prezidentin 2025-ci il 25 avqust tarixli Fərmanı ilə dövlət büdcəsindən təşkilatlara ayrılan vəsaitlərin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların dövlət xəzinədarlığı vasitəsi ilə ünvanlı icrasına başlanılmışdır. Beləliklə, tapşırığa uyğun olaraq, hesabat dövründə dövlət büdcəsi xərclərinin 98 faizi məhz xəzinə müşayiətinə cəlb edilmişdir.

Hesabatın müzakirəsi zamanı millət vəkilləri tərəfindən debitor borclarla bağlı da suallar verilmişdir. Bu məsələyə konseptual və kompleks baxışı bildirmək istərdik.

2025-ci ildə iri infrastruktur layihələr çərçivəsində qanunvericiliyin tələbinə uyğun olaraq, bağlanılmış yeni müqavilələr üzrə avans ödənişlər

həyata keçirilir. Hər il müxtəlif böyük layihələrin başlanması zamanı bu avans ödənişlərimiz həyata keçiriləcəkdir. Ona görə də bu debitor borcların məhz dinamikasını, ilk növbədə, bununla izah etməliyik.

Eyni zamanda, ötən il 1 milyard 797 milyon manat məbləğində də keçmiş illərin debitor borcları bağlanmışdır. Yəni ödənilmiş müxtəlif avanslar malların təqdim edilməsi ilə, xidmətlərin göstərilməsi ilə bağlanmışdır. Eyni zamanda, tərəfimizdən ciddi şəkildə mövcud debitor borclar təhlil edilmişdir və həmin məlumatlar əsasında zəruri tədbirlərin görülməsi ilə bağlı Nazirlər Kabineti tərəfindən 120 təşkilata müvafiq tapşırıqlar verilmişdir. Bu məsələ ardıcıl olaraq nəzərdə saxlanılacaqdır. Xüsusi ilə uzun müddət icra olunmayan avansların vaxtında və tam şəkildə icrası təmin olunacaqdır.

Eyni zamanda, müzakirələr zamanı dövlət büdcəsində bölüşdürülməyən xərclərin xüsusi çəkisinin azaldılması məsələsi də qeyd olunmuşdur. Bildirilməlidir ki, bölüşdürülməyən xərclərimiz bir qayda olaraq dövlətin müdafiə və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı xərclərdir. Eyni zamanda, əvvəlcədən proqnozlaşdırılması çətin olan və il ərzində qarşıya çıxan məsələlərin operativ həlli üçün nəzərdə tutulan xərclərdir. Ümumi rəqəm olaraq baxdıqda bu rəqəm dövlət büdcəsi xərclərinin cəmi 12,5 faizini təşkil edir. Bunun da böyük hissəsi müdafiə təyinatlı layihələr üçün ayrılmış vəsaitlərdir. Onların bölüşdürülməsi funksional olaraq da məqsədəuyğun hesab olunmur. Digər istiqamətdə isə xərclərin daha detallı bölüşdürülməsi üzərində iş aparılır. Proqnozlaşdırılması mümkün olan bütün istiqamətlər üzrə xərclər artıq 2026-cı il büdcəsində tam şəkildə bölüşdürülmüşdür.

Hörmətli deputatlar tərəfindən dövlət büdcəsindən müdafiə olunan xərclərin tərkibinin müəyyənləşdirilməsi ilə bağlı təkliflər də

səsləndirilmişdir. Bununla bağlı qeyd etmək istərdik ki, dövlət büdcəsinin xərclərində müdafiə olunan xərclər “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində öz əksini tapmışdır. Əgər hər hansı bir dəyişikliklə bağlı müdafiə olunan xərclərə dair təkliflər varsa, biz bunu qiymətləndirməyə, dəyərləndirməyə və müzakirə etməyə hazırıq.

Sosialyönümlü xərclərin tərkib elementlərinə gəldikdə isə bu gün büdcə qanunvericiliyi bu anlayışı hər hansı bir hüquqi terminlə təsbit etmir. Ona görə də biz Maliyyə Nazirliyinin mövqeyi olaraq sosialyönümlü xərclərə əməyin ödənişini, dərman, sarğı ləvazimatlarını, qida məhsullarını, sosial ödənişləri, icbari tibbi sığorta fonduna ayrılan vəsaitləri, icbari şəxsi sığortanı və bu qəbildən olan digər xərcləri əlavə edirik.

Digər bir məsələ isə dövlət büdcəsində nəzərdə tutulan investisiya xərclərinin proqnozla müqayisədə daha az icra olunması ilə bağlı idi. Bununla bağlı qeyd edək ki, hesabat ilində istifadə olunmamış investisiya xərcinin əsas hissəsini, yəni 90 faizini 334 milyon manat olaraq xarici kreditor qurumlarla birgə maliyyələşmə əsasında həyata keçirilən layihələr üzrə kreditlər təşkil edir. Belə ki, proqnozlaşdırma zamanı xarici kreditor qurumların vəsaiti hesabına icra ediləcək layihələrin hazırlıq tədbirləri, danışıqlar prosesi, kredit sazişlərinin imzalanmasının daha çox vaxt alması, zəruri hallarda operativliyin təmin edilməsi məqsədi ilə daha optimist ssenaridə proqnozlaşdırılmanın aparılması baş verir. Ona görə də dövr ərzində onların icrasında müəyyən qədər ləngimə olur. Çünki bu xarici kredit sazişləri heç də Azərbaycan hökumətinin qərarı ilə və ya onun prosedurları birtərəfli ilə tənzimlənmir. Bu, eyni zamanda, beynəlxalq maliyyə institutlarının kifayət qədər bürokratik və uzun proseduru ilə tənzimlənir. Ona görə də bir sıra hallarda bu kredit sazişlərinin həm imzalanmasında, həm də icrasında müəyyən qədər gecikmələr olur. Lakin

biz hökumət olaraq bu sazişlərin icra imkanını tam təmin etmək üçün növbəti il üçün proqnozlaşdırmada hər zaman onlar üçün maksimal məbləği nəzərdə tuturuq. Çünki belə nəticəyə gəlib çıxmaq istəmirik ki, o vəsait beynəlxalq bankdan götürülə bilir, lakin büdcə limitimiz olduğuna görə istifadə edə bilmirik. Ona görə də proqnozlaşdırmada hər zaman xarici kredit layihələri üzrə istifadə daha optimist ssenari ilə qoyulur və əlbəttə də ki, icra da artıq reallığa uyğun şəkildə aparılır.

Eyni zamanda, keçən il Nazirlər Kabinetinin qərarı ilə “Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Qaydaları” təsdiq edilibdir. Bu qaydalara əsasən investisiya layihələrinə, o cümlədən xarici kredit hesabına icra olunan investisiya layihələrinə icra qrafikinə uyğun icrasının yoxlanılması, vaxtında həyata keçirilməsi üçün müvafiq monitorinqlər də aparılacaqdır.

Qeyd olunan fikirlərdən biri də kənd təsərrüfatı sahəsinin daha da inkişaf etdirilməsi, istehsalın ixtisaslaşması, məhsuldarlığın artırılması ilə bağlı olmuşdur. Məlumdur ki, kənd təsərrüfatı sektoru qeyri-neft sektorunun prioritet sahələrindən biri kimi çıxış edir və hər il dövlət büdcəsindən qeyd olunan sahəyə əhəmiyyətli dövlət dəstəyi həm subsidiya formatında, həm müxtəlif güzəştlər və digər dəstək alətləri formatında göstərilir.

Təsadüfi deyildir ki, cənab Prezident tərəfindən 2026-cı il 25 may tarixli Sərəncamla “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Bildirmək istərdim ki, dövlət proqramı ölkənin aqrar siyasətində yeni inkişaf mərhələsinin əsas strateji sənədlərindən biridir və 2026–2030-cu illərdə bu istiqamətə dövlət büdcəsindən 2 milyard manata yaxın vəsaitin xərclənməsi

nəzərdə tutulur. Düşünürük ki, ciddi maliyyə resursunun əlavə edilməsi ilə kənd təsərrüfatı sahəsində də ciddi irəliləyişlər əldə edəcəyik.

Eyni zamanda, səhiyyə sahəsində profilaktik tədbirlərin və ilkin səhiyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı məsələlərə də toxunulmuşdur. Bununla bağlı qeyd edim ki, ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi, bu istiqamətdə tibbi xidmətlərin əhatəliyinin artırılması, tibbi xidmətlər zərfinin genişləndirilməsi və ailə həkimi institutunun formalaşdırılması istiqamətində silsilə tədbirlər görülür.

2026–2028-ci illər üzrə ilkin səhiyyənin profilaktik və erkən diaqnostika funksiyalarının gücləndirilməsi nəzərdə tutulur. Bu da öz növbəsində ümumi səhiyyə sisteminin yükünü azaltmaqla yanaşı, uzunmüddətli dövrdə dövlətin səhiyyə xərclərinin səmərəliliyini də artıracaq.

Səhiyyə sahəsi üzrə digər məsələ irsi və nadir uşaq xəstəliklərinin müalicəsi üçün əlavə maliyyə vəsaitlərinin ayrılması ilə bağlı qeyd edilmişdir. Bu istiqamət üzrə qeyd edim ki, hazırda icbari tibbi sığorta fondu hesabına irsi və nadir uşaq xəstəliklərinin müalicəsi, ana və uşaqların sağlamlığının yaxşılaşdırılması, uşaqların icbari dispanserizasiyadan keçirilməsi, uşaqlarda kistoz-fibroz genetik xəstəliyinə qarşı mübarizə tədbirlərinin maliyyələşdirilməsi təmin olunur. Yəni bu, artıq bizim icbari tibbi sığorta zərfinə daxil edilibdir. Əlbəttə ki, növbəti dövrdə bu istiqamətin daha da genişləndirilməsinə çalışacağıq və dövlət büdcəsinin vəsaiti hesabına uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikası üzrə cari ildə artıq 6 faiz daha artıq vəsait müəyyən edilmişdir.

Ümumilikdə, üç oxunuş dövründə və komitə iclaslarında hörmətli millət vəkillərimiz tərəfindən bir çox suallar qaldırılmışdır, bir çox təkliflər verilmişdir. Komitə iclasında çox geniş müzakirə edə bildik. Bugünkü çıxışımda da çalışdım ki, onların bir qisminə ümumiləşdirilmiş şəkildə qısa

cavab verim. Əlbəttə, hər bir təklifin, hər bir sualın müzakirəsi çox daha geniş vaxt tələb edir. Amma ümidvaram ki, səsləndirilən əsas suallara cavab verə bildim.

Bir daha qeyd etmək istərdim ki, 2025-ci ildə dövlət və icmal büdcələri möhtərəm Prezidentimiz tərəfindən müəyyən edilmiş prioritet istiqamətlərin, sosial təminat tədbirlərinin, ölkənin iqtisadi inkişafının, müdafiə qabiliyyətinin, milli təhlükəsizliyinin, işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması tədbirlərinin icrasını təmin etmiş və hökumət qarşısına qoyulan vəzifələrin maliyyələşdirilməsi tam şəkildə təmin edilmişdir.

Yekunda təqdim olunan hesabatı dəstəklədiyinizə görə hər birinizə bir daha təşəkkür etmək istəyirəm. Ümidvaram ki, növbəti dövrdə səsləndirilən təkliflər də daxil olmaqla, həm büdcəmizin hazırlanması, həm də onun icrası ilə bağlı daha mütərəqqi təcrübələri təmin edə biləcəyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Sahil müəllim.

Hörmətli həmkarlar, mən düşünürəm ki, qaldırılan bütün suallara cavab verildi, təkliflərə də münasibət bildirildi.

Sahil müəllim, sizin nazirliklə həmişə səmərəli əməkdaşlığımız var və ümidvaram ki, belə də olacaq. Dediyiniz kimi, Siz həmişə bizim komitə iclaslarında olursunuz. Biz bu səmərəli əməkdaşlığı yenə də davam etdirəcəyik. Çox sağ olun.

Hörmətli Vüqar Gülməmmədovun sözü var. Vüqar müəllim, buyurun.

**Vüqar Gülməmmədov**, *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Çox sağ olun, Sahibə xanım. Mən 2025-ci ilin dövlət büdcəsinin icrasına dair qanun layihəsinin və onunla birgə təqdim olunan hesabatın

müzakirəsi zamanı həm komitə iclasında, həm plenar iclasda hörmətli millət vəkillərinin Hesablama Palatasının rəyinə verdiyi qiymətə görə minnətdarlığımı bildirmək istəyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim.

Hörmətli həmkarlar, biz qonaqlarımızı hörmətlə yola salaq. Sağ olun. Həmişə sizə şadıq. Mənim hörmətli həmkarlarımın burada verdikləri sualları və təklifləri yaddan çıxmasın. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. 3-cü məsələyə keçirik. Bu, Cinayət-Prosessual Məcəllədə, Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, təklif edilən dəyişikliklə bağlı əvvəlki oxunuşlarda geniş məlumat verilib. Xahiş edirəm, məsələ ilə bağlı heç bir əlavə təklifin olmadığını nəzərə alaraq səsə qoyasınız. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələyə keçirik. Bu məsələ də Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bəhruz müəllim, mən yenə də sözü Sizə verirəm, Siz bu məsələ ilə bağlı məlumat verirsiniz. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Xanım sədr, əvvəlki oxunuşlarda ətraflı məlumat verilib. Əlavə təkliflərin və tövsiyələrin olmadığını nəzərə alaraq, səsə qoyulmasını xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti 5-ci məsələ İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə İnsan hüquqları komitəsində

baxılıb. Məsələ ilə bağlı məlumat vermək üçün sözü komitənin sədri hörmətli Zahid müəllimə verirəm. Zahid Oruc. Buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, layihə üç oxunuşda geniş müzakirə olunmuşdur və ikinci oxunuşda da hər hansı əlavə təkliflər, dəyişikliklər olmayıbdır. Ona görə də xahiş olunur, nəzərə alasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılmışdır. Bu gün komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Tamam xanım Cəfərovaya söz verirəm. Tamam xanım, buyurun.

**Tamam Cəfərova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Qanun layihəsi ilə bağlı əvvəlki oxunuşlarda geniş məlumat verilib. Komitəyə əlavə rəy və təkliflər daxil olmayıb. Milli Məclisin plenar islasına tövsiyə olunur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tamam xanım.

Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Bu layihələr geniş müzakirə olunub və bizim profilə uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinə müəyyən olunan məhdudiyyətlərə əsasən adekvat sanksiyaların tətbiqi təklif olmuşdu. Hər kəs bunu müdafiə edib. Üçüncü oxunuşda da səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Vüqar Bayramova söz verirəm. Vüqar müəllim, buyurun.

**Vüqar Bayramov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli milləti vəkilləri, qanun layihəsi ilə bağlı hər iki oxunuşda Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa müəllim Quliyev tərəfindən ətraflı məlumat verilmişdir. Qanun layihəsi ilə bağlı hər hansı qeyd, təklif və irad daxil olmamışdır. Qanun layihəsi üçüncü oxunuşda Əmək və sosial siyasət komitəsində müzakirə olunmuş və dəstəklənmişdir. O baxımdan, hörmətli xanım sədr, qanun layihəsinin səsverməyə çıxarılmasını təklif edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim.

Bu məsələyə iki komitədə də baxılmışdır. Zahid müəllim, birinci komitə sizin komitənizdir. Buyurun, məlumat verin.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, biz hər iki oxunuşda geniş çıxış etmişdik. Layihənin Azərbaycanın müasir tarixinin ən böyük insan hüquqları hadisəsi kimi dəyərləndirmişdik. Böyük Qayıdışa xidmət edən qanunvericilik aktıdır. Komitəmiz layihənin lehinədir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Əli müəllim, buyurun, komitənin rəyini bildirin.

**Əli Hüseynli.** Hörmətli sədr, dəyərli həmkarlarımın fikirlərini tam bölüşürəm. Bizim komitə də bu qanunvericilik təşəbbüsünü tam dəstəkləyir. Mənzil Məcəlləsində edilən əlavələr və dəyişikliklər məcburi köçkünlərin uzun illərdir, pozulmuş konstitusion mülkiyyət hüququnu tam bərpa edir. Yekdilliklə dəstəkləyirik, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli deputatlar, gündəliyin növbəti 4 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Qeyd edim ki, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 7-ci məsələ "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsidir, 8-ci məsələ isə "Dövlət qulluğu haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Mahiyyətcə bir-birinə yaxın olan qanun layihələridir. Təklif edirəm ki, biz qanun layihələrinin təqdimatlarını birgə dinləyək, sonra birlikdə müzakirə edək, ayrılıqda isə səs verək.

7-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, yenə də mən sözü Sizə verirəm. Buyurun, Əli Hüseynli, komitə sədri.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, dəyərli həmkarlar, hər iki məsələ ilə bağlı birinci oxunuşda mən və hörmətli Zahid Oruc tərəfindən təqdimatlar oldu. Layihənin əsas məqsədi Media və Yayım Şurası ilə bağlıdır. Audiovizual Şuranın adı dəyişdirilir. Hörmətli sədr, onu qeyd etmək istəyirəm ki, çıxış edən deputatlar Azərbaycanda media sahəsində aparılan islahatlarla bağlı, medianın inkişafı ilə bağlı, ölkəmizə xaricdən təhdidlərlə bağlı çox dəyərli fikirlər söylədilər və bütün çıxış edənlər bu iki layihəni dəstəklədilər. Yəni Konstitusiya qanununa təklif olunan dəyişikliyin mahiyyəti adın dəyişməsi ilə bağlıdır. Amma onunla əlaqədar olaraq "Dövlət qulluğu haqqında" Qanunda da bir sıra əlavələr və dəyişikliklər olur, çünki bu qurumun qəbul etdiyi qərarlar normativ sənədlərdir.

Bütövlükdə, bir daha hamıya təşəkkür edirəm ki, bu layihənin əhəmiyyətini vurğuladılar. Əminəm ki, bundan sonra edilmiş bu dəyişikliklər nəticəsində Azərbaycan mediası daha da uğurlu inkişaf edəcəkdir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Zahid müəllim, 8-ci məsələyə sizin komitənizdə baxılıb. Buyurun, məlumat verin.

**Zahid Oruc.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Dəyərli Əli müəllim Hüseynli artıq qeyd etdi, yeni yaradılan qurumla bağlı bir layihədir. Hörmətli Hicran xanım Hüseynova, Sevil Mikayılova, Sahib Alıyev, Elçin Mirzəbəyli və Vüqar Rəhimzadə birinci oxunuşda çox dəyərli fikirlərini, müasir informasiya məkanında gedən prosesləri vurğulamışdılar və yeni yaradılan qurumun Prezidentin apardığı bu siyasətə töhfə verəcəyini qeyd etmişdilər. Ona görə də düşünürəm ki, layihə qəbul üçün tamamilə hazırdır.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, biz təqdimatları dinlədik. Bilirsiniz ki, biz qanun layihələrini ikinci oxunuşda gərək əsas kimi təsdiq eləyək. İndi 7-ci məsələyə əsas kimi münasibət bildirmək lazımdır. Xahiş edirəm, əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 8-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Ona görə də səsverməyə keçirik. Hörmətli həmkarlar, ikinci oxunuşdur, maddələr üzrə səs verəcəyik, sonra isə hər bir qanun layihəsinə bütövlükdə münasibət bildirməliyik. 7-ci məsələdə – "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsində 1 maddə var. Xahiş edirəm, həmin o maddəyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi isə xahiş edirəm, bu qanun layihəsinə bütövlükdə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, Konstitusiya qanununun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi 8-ci məsələnin səsverməsinə keçirik. Bu, "Dövlət qulluğu haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi, çox sağ olun.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə keçirik. Bu, "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, yenə də Sizdən xahiş edirəm, bu qanun layihəsi haqqında bizə məlumat verin. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, bu layihə, həqiqətən, çox mütərəqqi bir layihədir və tərəfimdən geniş məlumat verildi. Qanun layihəsinin məqsədi iki istiqamətdə – birinci, parlamentdə keçirilən ictimai müzakirələrin və dinləmələrin, ikinci isə, vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə edərkən bütün bu proseslərin elektron hökumət informasiya sistemi üzərindən keçirilməsinin qanunvericilik əsaslarını yaradır. Bu, çox mütərəqqi bir layihədir, şəffaflığa və vətəndaş məmnunluğuna xidmət edir. Həmkarlarım da çıxışlarında dəstəklədilər. İkinci oxunuşda da dəstəklənib səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Heç kim çıxış etmək istəmir. Səsverməyə keçirik. Hörmətli həmkarlar, bu qanun layihəsində 3 maddə var. Mən onları bir-bir səsə qoyacağam. İndi xahiş edirəm, 1-ci maddəyə münasibət bildirəsiniz. Səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

3-cü maddəni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun, məlumat verin.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Birinci oxunuş zamanı "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə ətraflı məlumat

vermişdim. İkinci oxunuşa qədər komitəyə hər hansı təklif daxil olmamışdır. Elm və təhsil komitəsi qanun layihəsini plenar iclasa tövsiyə etmişdir.

Hörmətli xanım sədr, qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsini də əsas kimi qəbul etməliyik. Buyurun, ikinci oxunuşda əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa heç kim yazılmayıb. Biz indi maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi, çox sağ olun.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 4 məsələ qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Həmişə olduğu kimi, mən bunu həmişə deyirəm, xahiş edirəm, hamımız birinci oxunuşun tələblərinə riayət edək.

Gündəliyin 11-ci məsələsinə keçirik. Bu məsələ “Psixiatriya yardımı haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələ ilə əlaqədar dəvət olunan şəxslər var. Azərbaycan Respublikası səhiyyə nazirinin müavini hörmətli Nadir Zeynalov, – Nadir

müəllim buradadır, – nazirliyin şöbə müdiri hörmətli Elçin Qədirov da iclasımızda iştirak edirlər. Mən bir daha sizi salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Əhliman müəllimə söz vermək istəyirəm. Əhliman Əmiraslanov. Buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli deputat həmkarlarım, media mənsubları. Təqdim olunan qanun layihəsi “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda bir sıra dəyişikliklərin edilməsini nəzərdə tutur.

Layihənin əsas məqsədi psixiatriya yardımı sahəsində mövcud hüquqi boşluqların aradan qaldırılması, şəxslərin hüquq və təhlükəsizliyinin daha effektiv təmin olunması, həmçinin müasir elektron səhiyyə sisteminin tətbiqidir. Sözügedən hüquqi sənəd psixiatriya yardımı sahəsində qanunvericilikdə mövcud olan boşluqların aradan qaldırılması və bu sahədə qaydaların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Qanun layihəsindəki 14 maddənin hər biri mahiyyət xarakterli 16 əlavə və dəyişikliyi özündə ehtiva edir. Xatırladım ki, psixiatriya yardımı sahəsində münasibətləri tənzimləyən və bu sahədə hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edən qanun 2001-ci ildə qəbul olunmuş və indiyə qədər ona 41 adda dəyişiklik edilmişdir.

Hörmətli həmkarlar, sizə təqdim olunan qanun layihəsində dəyişikliklərin əsas mahiyyəti psixi pozuntu vəziyyətində olan şəxslərin özünün, yaxud başqa şəxslərin sağlamlığını və təhlükəsizliyini təmin etmək məqsədi ilə psixiatriya yardımı qaydalarının təkmilləşdirilməsindən qaynaqlanır.

Layihəyə əsasən qanunun 7-ci və 10-cu maddələrinə psixi pozuntusu olan şəxslərin sağlamlıq vəziyyəti və onlara göstərilən psixiatriya yardımı ilə bağlı məlumatların elektron sağlamlıq kartında saxlanması təklif edilir. Həmçinin müalicədən imtina halları ilə bağlı məlumatların elektron sistemə daxil olması təklif olunur ki, bu da tibbi sənədləşmənin daha şəffaf və sistemli aparılmasına xidmət edəcəkdir. Eyni zamanda, psixiatriya yardımı alan şəxsin özü həmin məlumatları elektron sistem vasitəsi ilə əldə edə biləcək, onun qanuni nümayəndələrinə isə bu məlumatlar yazılı müraciət əsasında 2 iş günü müddətində təqdim olunacaqdır.

Hörmətli həmkarlar, qanun layihəsində mühüm yeniliklərdən biri də psixi pozuntu vəziyyətində olan şəxslərə psixiatriya müayinəsinin aparılması ilə bağlı prosedurların təkmilləşdirilməsidir. Belə ki, inzibati xəta haqqında icraat zamanı şəxsin özünün və ya ətrafdakıların həyat və sağlamlığı üçün təhlükə yarandıqda 17-ci maddəyə təklif edilən dəyişikliklərə əsasən prokuror və müvafiq səlahiyyətli şəxsin qərarı ilə psixiatriya müayinəsinin aparılması mümkün olacaqdır. Bununla yanaşı, psixiatriya müayinəsinin nəticələri barədə müraciət etmiş quruma dərhal məlumat verilməsi nəzərdə tutulur, həmçinin psixi pozuntusu olan şəxsin stasionara yerləşdirilməsi barədə yaxın qohumlarının və qanuni nümayəndələrinin dərhal məlumatlandırılması təmin edilir.

Qanun layihəsində tibbi xarakterli məcburi tədbirlərə cəlb olunan şəxslərlə bağlı təhlükəsizlik məsələlərinə də xüsusi diqqət yetirilir. 12.4-cü maddəyə əsasən belə xəstələrin digər xəstələrdən təcrid olunmaqla müalicəsinin təşkili nəzərdə tutulur.

Hörmətli həmkarlar, hesab edirəm ki, təqdim olunan dəyişikliklər psixiatriya yardımı sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə və ictimai təhlükəsizliyin daha effektiv təmin edilməsinə xidmət edəcəkdir.

Qanun layihəsi Milli Məclisin Səhiyyə komitəsində geniş müzakirə olunaraq Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Təqdim olunan qanun layihəsini birinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Yazılanlar var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Necə? 5 dəqiqə təklif olunur. Hamı razıdır? Səsə qoymağa ehtiyac yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. 5 dəqiqə.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, "Psixiatriya yardımı haqqında" Qanuna təklif edilən dəyişikliklər insan azadlığı, şəxsi toxunulmazlıq, rəsmi orqanların müdaxiləsinin sərhədləri və cəmiyyətin təhlükəsizliyi kimi olduqca həssas məsələləri əhatə eləyir.

Ağır psixi böhran keçirən, özünə və ya ətrafdakılara təhlükə yaradan bir insanın qarşısında dayananda rəsmi orqanlar iki seçimlə üz-üzə olurlar: ya müdaxilə etməlidirlər, ya da özlərini kənarda saxlamalıdılar. Lakin "şəxs razılıq vermədi" deyərək hadisəni izləmək, əslində, məsuliyyətdən imtina etmək deməkdir.

Layihədə psixiatriya yardımı haqqında məlumatların elektron sağlamlıq kartında saxlanılması, şəxsin həmin məlumatları elektron sistemdən əldə etməsi, qanuni nümayəndəyə məlumatların 2 iş günü ərzində verilməsi, müalicədən imtinanın sistemdə rəsmiləşdirilməsi, tibbi xarakterli məcburi tədbirlərə cəlb edilən şəxslərin digər pasiyentlərdən ayrı müalicə olunması, yaxın qohumların və qanuni nümayəndələrin dərhal məlumatlandırılması

kimi müddəalar mövcuddur. Göründüyü kimi, son dərəcə mühüm olan tədbirlər tibbi prosesin sənədləşdirilməsinə, izlənilməsinə və məsuliyyətin artırılmasına xidmət edir.

Layihə ətrafında süni şəkildə ajiotaj yaradan və ondan dövlət hakimiyyəti orqanları əleyhinə istifadə edən qüvvələr bir müddəa – inzibati xəta haqqında icraat aparılan şəxsin razılığı olmadan psixiatriya müayinəsinə göndərilməsi ilə bağlı kampaniya aparırlar. Müzakirə edilən müddəanı Sovet dövrünün cəza psixiatriyası ilə müqayisə edən Cəmil Həsənli və onun kimi düşünənlər əllərində səlahiyyət olsaydı, bütün siyasi rəqiblərinə repressiya tətbiq edərdilər. Halbuki Zəfərimizi belə tanımayan qüvvələr qanunun mətnini diqqətlə oxusaydılar, üç mühüm məqamı aydın görərdilər.

Birinci. Söhbət istənilən vətəndaşdan və ya siyasi fəaldan deyil, barəsində inzibati xəta haqqında icraat aparılan şəxsdən gedir.

İkinci. Psixiatriya yardımının gecikdirilməsinin şəxsin özünün və ya başqa şəxslərin həyat və sağlamlığı üçün təhlükə yaratması şərti mövcuddur.

Üçüncü. Prokuror və ya digər səlahiyyətli vəzifəli şəxs psixi xəstəlik diaqnozu qoymur. O, yalnız müayinənin aparılması barədə prosedur qərarını qəbul edir. Psixi pozuntunun olub-olmamasını həkim-psixiatr müəyyənləşdirir. Deməli, inzibati orqanın qərarı tibbi diaqnoz sayılmır, müayinə hospitalizasiya anlamına gəlmir, hospitalizasiya da müddətsiz azadlıqdan məhrumetmə kimi qiymətləndirilə bilməz.

Qüvvədə olan qanunvericiliyə görə, qeyri-könüllü psixiatriya stasionarına yerləşdirilən şəxs 48 saat ərzində həkim-psixiatr komissiyası tərəfindən müayinə olunmalı, hospitalizasiyanın əsaslığı müəyyənləşdirilməli və məsələ məhkəmə qarşısına çıxarılmalıdır. Burada

göründüyü kimi, şəxsin etiraz hüququ mövcuddur. Deməli, inzibati qərar yalnız prosesin başlanması deməkdir. Onu davam etdirmək səlahiyyəti nə prokurorda, nə inzibati orqanda, nə də hakimdə yoxdur. Daha doğrusu, bu, yalnız həkimdədir. Qərar qəbul etmək səlahiyyəti, artıq söylədim, məhkəmədədir.

Bəs demokratik dövlətlərdə bu vəziyyət necədir? Böyük Britaniyanın Psixi Sağlamlıq Aktının 136-cı maddəsinə əsasən polis ictimai yerdə psixi pozuntu əlamətləri göstərən və təcili qayğıya və nəzarətə ehtiyacı olan şəxsi onun özünü və ya başqalarını qorumaq məqsədi ilə təhlükəsiz yerə aparmaq səlahiyyətindədir. Şəxs orada həkim və təsdiqlənmiş psixi sağlamlıq mütəxəssisi tərəfindən qiymətləndirilir. 2025-ci ildə qəbul edilən islahatlar çərçivəsində qanun daha da sərtləşdirilib.

Fransada razılıq olmadan psixiatriya yardımı şəxsin psixi vəziyyəti onun razılıq verməsi mümkünsüz olduqda və dərhal tibbi yardım tələb edildikdə tətbiq olunur. Göründüyü kimi, yəni beynəlxalq praktikada geniş tətbiq olunan bu qanunvericilik aktı – Fransada prefektin, Britaniyada polisin, Azərbaycanda isə prokurorun prosesi başlatması, yəni hər üç ölkədə inzibati proses eynidir, lakin son anda verilən qərar məhkəmə vasitəsi ilədir. Ona görə də bu qərarın hər hansı bir siyasi baxımdan qiymətləndirilməsini doğru saymırıq və onun lehinə səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim edilən qanun layihəsi psixiatriya yardımı sahəsində hüquqi boşluqların aradan qaldırılması və bu sahədə qaydaların təkmilləşdirilməsi baxımından, ümumilikdə, müsbət qiymətləndirilməlidir.

Layihədə psixi sağlamlıq sahəsində müasir tələblər nəzərə alınır, elektron sağlamlıq kartı sistemi tətbiq edilir və məcburi hospitalizasiya zamanı təhlükəsizlik tədbirlərinin hüquqi əsasları dəqiqləşdirilir. Həmçinin inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxslərin psixiatrik müayinəsinin hüquqi mexanizmi müəyyən edilir. Bütün bunlar mövcud qanunvericilikdə olan bir sıra boşluqların aradan qaldırılmasına xidmət edir.

Eyni zamanda, layihə hüquqi müəyyənlik prinsipinin gücləndirilməsinə, psixiatriya yardımı sahəsində tətbiq zamanı yaranan praktiki çətinliklərin aradan qaldırılmasına və hüquq mühafizə orqanları ilə tibb müəssisələri arasında qarşılıqlı fəaliyyətin daha səmərəli təşkilinə imkan yaradır.

Bununla yanaşı, layihənin daha da təkmilləşdirilməsi məqsədi ilə diqqət yetirilməsi zəruri olan bir sıra məqamlar da mövcuddur. Belə ki, elektron sağlamlıq kartında məlumatların saxlanılması nəzərdə tutulsa da, həmin məlumatlara hansı dövlət orqanlarının və hansı əsaslarla çıxış əldə edə biləcəyi, məlumatların saxlanma müddəti, onların qorunması mexanizmləri, habelə qanunsuz istifadəyə görən məsuliyyət məsələləri kifayət qədər ətraflı tənzimlənməmişdir. Nəzərə alınmalıdır ki, psixi sağlamlıqla bağlı məlumatlar xüsusi kateqoriyalı şəxsi məlumatlar hesab olunur və onların mühafizəsi daha yüksək hüquqi təminat tələb edir.

Layihədə bir sıra müddəalarda istifadə edilən “dərhal məlumat verilir” ifadəsi də, hesab edirəm ki, hüquqi müəyyənlik baxımından konkretləşdirilməlidir. Bu anlayışın dəqiq vaxt meyarı ilə müəyyən edilməməsi praktikada müxtəlif yanaşmalara səbəb ola bilər. Bu baxımdan, hesab edirəm ki, məlumatın, məsələn, 3 saatdan gec olmayaraq və ya 24 saat ərzində təqdim edilməsinin qanunda dəqiq göstərilməsi məqsədəuyğun olardı.

Həmçinin layihədə digər pasiyentlərin və şəxsin özünün təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə təcrid tədbirinin tətbiqi nəzərdə tutulsa da, həmin təcridin maksimum müddəti, uzadılması qaydası, həkim komissiyası tərəfindən yenidən qiymətləndirilməsi və bu proses üzərində nəzarət mexanizmi müəyyən edilməmişdir. Bu məsələlərin qanunvericilikdə əks etdirilməsi insan hüquqlarının müdafiəsi baxımından əlavə təminat yaradardı. Layihədə prokurorun məlumatlandırılması və müəyyən qərarlar qəbul etməsi ilə bağlı müddəalar nəzərdə tutulsa da, həmin qərarların forması, onlardan şikayət verilməsi qaydası və məhkəmə nəzarətinin həyata keçirilməsi mexanizmi tam şəkildə tənzimlənməmişdir. Bu məsələlərin dəqiqləşdirilməsi hüquqi müəyyənliyin təmin olunmasına xidmət edər.

Bundan əlavə, layihədə təhlükəsizlik tədbirlərinin tətbiqi geniş şəkildə tənzimlənsə də, pasiyentin hüquqlarının qorunmasına dair əlavə təminatların nəzərdə tutulması da məqsədəuyğun olardı. Xüsusi ilə hüquqi yardım almaq, vəkil cəlb etmək, yaxın qohumları ilə əlaqə saxlamaq, psixoloji dəstək almaq və qəbul edilmiş qərarlardan şikayət vermək hüquqlarının ayrıca vurğulanması qanunun insan hüquqlarına əsaslanan balanslı tətbiqini təmin edər.

Layihənin daha da təkmilləşdirilməsi məqsədi ilə elektron sağlamlıq kartının tətbiqi, məlumatların qorunması, onlara çıxış qaydaları, audit mexanizmi və kiber təhlükəsizlik tədbirlərini tənzimləyən ayrıca normanın əlavə edilməsi də məqsədəuyğun olardı.

Eyni zamanda, məcburi hospitalizasiya edilən şəxslərin müəyyən müddət keçdikdən sonra müstəqil psixiatr tərəfindən təkrar müayinəsinin nəzərdə tutulması da səhv diaqnoz və ya əsasız məhdudiyyət riskinin azalmasına xidmət edər.

Bundan başqa, psixiatriya müəssisələri ilə məhkəmələr arasında elektron məlumat mübadiləsi sisteminin yaradılması qərarların icrasını sürətləndirə və sənəd dövriyyəsinin operativliyini artıra bilər.

Həmçinin məcburi hospitalizasiya, məcburi müayinə və təcrid tədbirləri üzrə anonim statistik məlumatların hər il ictimaiyyətə açıqlanmasının nəzərdə tutulması qanunun tətbiqinin effektivliyinin qiymətləndirilməsinə və gələcək qanunvericilik islahatlarının əsaslandırılmasına kömək edər.

Ümumilikdə, hesab edirəm ki, bu qanun layihəsi psixiatriya yardımı sahəsində hüquqi tənzimlənmənin təkmilləşdirilməsi baxımından əhəmiyyətli qanunvericilik təşəbbüsüdür. Qeyd etdiyim məsələlərin də nəzərə alınması onun hüquqi keyfiyyətini, insan hüquqlarının müdafiəsi baxımından təminatlarını və praktiki tətbiq səmərəliliyini daha da artıracaqdır.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi çox zəruridir və hesab edirik ki, biz bu layihəni qəbul etməliyik. Səhiyyə komitəsinin sədri hörmətli akademik Əhliman Əmiraslanov çox geniş, ətraflı məlumat verdi. Qeyd etməliyəm ki, qanun layihəsi çox yüksək səviyyədə hazırlanıb, həm elmi, həm hüquqi, həm də metodik tələblərə tam cavab verir.

Qanunun məqsədi, ilk növbədə, Azərbaycan əhalisinin psixi sağlamlığının qorunması, bu xidmətin daha da yaxşılaşdırılması, bizim cəmiyyətdə rast gəldiyimiz bəzi faciəvi halların vaxtında qarşısının alınmasıdır. Bəzən insanlar ailələrində kimin isə psixi nasazlığından, ağır

vəziyyətdə olmasından çəkinirlər, bunu gizlədirlər. Bu isə sonda bir sıra xoşagəlməz və faciəvi nəticələrə gətirib çıxarır. Ona görə də qanuna edilən bu dəyişiklik olduqca vacibdir.

Xatırlayıram ki, 25 il bundan öncə də Psixiatriya yardımı haqqında qanun layihəsi müzakirə olunanda bu məsələlər Milli Məclisdə çox geniş müzakirə edilmişdi. O zaman da bir sıra tədbirlərin görülməsi ilə bağlı zəruri addımların atılması nəzərdə tutulurdu. Bütün bunlar nəzərə alınmaqla, vaxtı ilə beynəlxalq ekspertlər və bizim öz mütəxəssislərimiz cəlb edilərək geniş ictimai müzakirələr keçirildi, əhalinin psixi sağlamlığının qorunması ilə bağlı psixi sağlamlıq sahəsində milli strategiya qəbul edildi. Hesab edirəm ki, bu gün bu qanuna edilən dəyişikliklər də həmin milli sağlamlıq sahəsində milli strategiyanın tələblərinə uyğundur, orada nəzərdə tutulmuş islahatların davamıdır. Bu baxımdan da, hesab edirəm ki, bu qanunun qəbul edilməsi Azərbaycan əhalisinin həm psixi sağlamlığının qorunmasına, eyni zamanda, həm bu xəstəliyə düçar olan şəxslərin, həm də ətrafdakı insanların hüquqlarının tam qorunmasını təmin edəcəkdir. Ona görə də bu qanun layihəsinə səs verilməsini təklif edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Təklif olunan qanun layihəsi insan hüquq və azadlıqlarının qorunmasının rəqəmsal dövrün tələblərinə uyğunlaşdırılması və ictimai təhlükəsizliyin gücləndirilməsi baxımından əhəmiyyətə malikdir. Lakin layihənin müvafiq komitənin iclasında müzakirəsindən sonra bəzi informasiya resurslarında, sosial şəbəkələrdə əsassız və qərəzli şərhləri, ictimai rəyin çaşdırılmasına xidmət edən manipulyativ yanaşmaları nəzərə

alaraq, bu dəyişikliklərin Azərbaycan Respublikasının Konstitusiyasına, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq konvensiyalara, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna uyğunluğu barədə bəzi məqamları diqqətə çatdırmaq istəyirəm. Çünki irəli sürülən iddialarda məhz bu sənədlərə istinad olunur.

Əvvəlcə, onu qeyd etmək vacibdir ki, layihədə heç bir halda prokurora vətəndaşı psixiatriya xəstəxanasına yatırtmaq səlahiyyəti verilmir. Söhbət yalnız barəsində inzibati xəta işi aparılan və aqressiv davranışı ilə təhlükə yaradan şəxsin ilkin psixiatriya müayinəsindən keçirilməsi barədə qərardan gedir. Prokurorun və ya digər səlahiyyətli vəzifəli şəxsin müraciəti yalnız həkim-psixiatrın rəyi əsasında reallaşa bilər. Tibbi diaqnozu hüquq mühafizə orqanları deyil, müstəqil tibbi heyət və həkim komissiyası müəyyən edir. Tibbi zərurət olmadığı halda isə, proses dərhal dayandırılır.

Qanunun qüvvədə olan və dəyişdirilməyən imperativ normasına əsasən qeyri-könüllü müayinənin aparılması barədə ərizə və ya qərar, habelə aidiyyəti materiallar müəssisə rəhbərliyi tərəfindən məhkəməyə təqdim olunur və bütün hallarda yekun qərarı məhkəmə verir. Bu baxımdan, layihəni təzyiq aləti kimi təqdim etmək qərəzli yanaşmadan başqa bir şey deyil.

Layihədə psixi pozuntusu olan şəxslərin məlumatlarının, eləcə də müalicədən imtina hallarının vahid elektron sağlamlıq kartı sistemində saxlanılması təklif olunur. Bununla yanaşı, mühüm prosessual yenilik kimi, xəstə barədə məlumatların onun qanuni nümayəndəsinə yazılı müraciətdən sonra 2 iş günü ərzində təqdim olunması öhdəliyi müəyyən edilir. Bu norma Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş şəxsi toxunulmazlıq və məlumat azadlığı hüququnun təminatlarını gücləndirməklə yanaşı, “İnsan hüquqlarının və əsas azadlıqlarının

müdafiəsi haqqında" Konvensiyanın şəxsi həyatın toxunulmazlığına dair 8-ci maddəsinin tələblərinə də tamamilə uyğundur.

Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüquqlu "L.M. Latviyaya qarşı" işində vurğulanır ki, dövlətlər pasiyentin tibbi iradəsinin şəffaf və sonradan dəyişdirilməsi mümkün olmayan təhlükəsiz sistemlərdə saxlanılmasını təmin etməlidirlər. Elektron sistem məlumatlarda tarixin dəyişdirilməsi riskini də aradan qaldırır. Layihədə nəzərdə tutulan 2 iş günü müddəti isə bürokratik gecikmələrin qarşısını almaqla pasiyentin yaxınlarının məlumat əldə etmək hüququnun operativ və effektiv şəkildə həyata keçirilməsinə xidmət edir.

Pasiyentin məlumat əldə etmək hüququnun yalnız onun özünün və ya digər şəxslərin təhlükəsizliyi naminə məhdudlaşdırılması isə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 8-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulan legitim məhdudiyyət meyarlarına tamamilə cavab verir.

Yeni əlavəyə əsasən barəsində inzibati xəta işi aparılan və gecikdirilməsi təhlükə yarada biləcək şəxslər prokurorun, səlahiyyətli orqanın qərarı ilə razılığı olmadan psixiatriya müayinəsinə cəlb edilə bilərlər. Bu norma Konstitusiyanın insan ləyaqətinin qorunması və hüquqlarının məhdudlaşdırılmasının qanuni əsasları ilə bağlı müddəalarına söykənir və dövlətin, vətəndaşların həyatını və sağlamlığını qorumaq öhdəliyindən irəli gəlir.

Avropa İnsan Hüquqları Məhkəməsinin beynəlxalq hüquqda baza standartlarından biri hesab olunan "Winterwerp Niderlanda qarşı" qərarında qeyri-könüllü tibbi müdaxilə üçün konkret meyarlar müəyyən edilib. Həmin qərara görə, şəxsin psixi vəziyyəti obyektiv tibbi ekspertiza ilə təsdiqlənməli və bu vəziyyətin ətrafdakılar üçün real təhlükə yaratması əsas

götürülməlidir. Təklif olunan dəyişikliklər məhz özünün və ya başqalarının həyat və sağlamlığına təhlükə yaratması şərtini imperativ norma kimi müəyyən etməklə, istinad etdiyim beynəlxalq standartı tam şəkildə əks etdirir.

Konstitusiyanın 28-ci maddəsi azadlıq hüququnu təmin etsə də, qanunla müəyyən edilmiş hallarda onun məhdudlaşdırılmasına yol verilir. Burada söhbət cəzalandırmaqdan deyil, digər pasiyentlərin Konstitusiyaya uyğun olaraq, yaşamaq hüququnun və digər maddələrdə nəzərdə tutulan sağlamlığın qorunması hüququnun müdafiəsindən gedir. Bu baxımdan, hesab edirəm ki, cinayət törətmiş və ya yüksək aqressiv davranış nümayiş etdirən şəxslərin adi pasiyentlərlə, bütövlükdə, saxlanılması digər vətəndaşların təhlükəsizliyi üçün də risk yarada bilər. Bu da qanunvericilikdə nəzərə alınıb.

Layihəni dəstəkləyirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Nigar Məmmədova. Buyurun.

**Nigar Məmmədova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsi haqqında hörmətli akademikimiz detallı məlumat verdi. Qanun layihəsi təkcə psixiatrik yardım haqqında deyil, həmçinin cəmiyyətimizin təhlükəsizliyini, insan hüquqlarını əhatə edən qanun layihəsidir.

Xanım sədr, icazənizlə, mən bu gün məsələyə yalnız deputat kimi deyil, bu sahədə təcrübəsi olan bir şəxs kimi öz mövqeyimi nümayiş etdirmək istərdim. Mən vaxtı ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin rəhbəri kimi çalışmışam, həmçinin mərkəzin Qiymətləndirmə komissiyasının sədri kimi də fəaliyyət göstərmişəm. Fəaliyyət dövrümdə, əlbəttə ki, mürəkkəb məsələlərlə də rastlaşmışam.

Bəzən ailələr müxtəlif səbəblərdən yaxınlarının psixi sağlamlıq vəziyyəti barədə bütün məlumatları təqdim etmirlər və ya təqdim olunan tibbi sənədlərdə həmin şəxslərin real vəziyyəti tam öz əksini tapmır. Mən bu gün çıxışımda o şəxsləri, onların yaxınlarını, valideynlərini ittiham etmək istəmirəm. Onları tam başa düşürəm, anlayıram. Çünki onlar övladlarının təhsil almaq, işləmək və cəmiyyətə inteqrasiya etmək imkanlarını itirməsini istəmirlər. Lakin həqiqət birdir və həqiqət onu göstərir ki, əgər biz nə isə gizlədiriksə, onların təhlükəsizliyini risk altına alırıq. Bu qanun layihəsi də həmin riskləri aradan qaldırır.

Bu baxımdan da, dəyişikliklərdən biri elektron sağlamlıq kartının yaradılması ilə bağlıdır. Bu, çox mühüm bir adımdır. Çünki hesab edirəm, bu sistem yüksək səviyyədən məlumat təhlükəsizliyi ilə yanaşı, müxtəlif tibbi müəssisələr arasında operativ informasiya mübadiləsi, dialoq, inteqrasiya yaradır və eyni zamanda da, düzgün diaqnostikanı, müalicənin davamlılığını təmin edir və nəticədə çox operativ bir mexanizm yaranır.

Mən növbəti bir dəyişikliklə bağlı öz mövqeyimi nümayiş etdirmək istərdim. Bu, müalicədən imtinanın elektron qaydada qeyd olunmasıdır. Ancaq gələcəkdə təkcə imtina faktını deyil, buradakı səbəbləri də yüksək qiymətləndirərdim. Çünki müalicəni həkimin qərarı ilə başa vuran insanla heç bir tibbi əsas olmadan müalicəni yarımçıq dayandıran şəxs eyni vəziyyətdə deyil. Bu dəyişiklik həm həkimlər, həm də sonradan həmin şəxslə işləyəcək təhsil, sosial xidmət və digər müəssisələr üçün dolğun qiymətləndirmə imkanı yaradır. Bu baxımdan da, gələcəkdə bu səbəbləri orada qeyd etmək vacib olardı.

Növbəti dəyişikliklə də bağlı öz fikrimi çatdırmaq istərdim. Bu, məcburi tibbi tədbirlərin tətbiq olunduğu şəxslərin digər pasiyentlərdən ayrılması barədə dəyişiklikdir. Bununla bağlı Abşeron rayonunun sakinləri tərəfindən

mənə müraciət olunmuşdu. Mən də Səhiyyə Nazirliyinə müraciət etmişdim. Bu, cəza deyil. Bundan öncə də qeyd edildi, bu, həm pasiyentin, həm onun ətrafının, həm də tibbi heyətin təhlükəsizliyini təmin edir. Digər tərəfdən də, bu, prosesin məhsuldarlığını yüksəldir. Bunu da qeyd etməliyik.

Mən gələcək islahatlarda bir neçə məqamı da həmkarlarımın diqqətinə çatdırmaq istərdim. Əgər biz bu gün qanunun səmərəliliyindən danışırıqsa, əlbəttə ki, hər bir qanun güclü kadrlarla effektiv işləyə bilər və psixi sağlamlıq sahəsində çalışan həkimlərin peşəkar hazırlığı davamlı şəkildə gücləndirilməlidir.

Digər bir məsələni də diqqətinizə çatdırmaq istərdim. Bilirsiniz, müayinə edirik, müalicə edirik, amma müalicədən sonra həmin şəxslərin reabilitasiyası, sosial adaptasiyası, cəmiyyətə reinteqrasiyası vacibdir və onların normal həyata qayıtmaları üçün, əlbəttə ki, dəstək lazımdır. Bunun üçün də multidisiplinar komandanın mövcudluğu şərtdir. Burada da psixiatr, psixoterapevt, sosial işçi, həmçinin kliniki psixoloq bir yerdə çalışmalıdırlar.

Stereotiplərin cəmiyyətdə mövcudluğunu da qeyd etmək istərdim. Əlbəttə ki, insanlar qoxmamalıdırlar və həkimə müraciət etmək üçün onlar heç bir diaqnozu gizlətməməlidirlər, utanmamalıdırlar və bilməlidirlər ki, həkimə müraciət etmək böyük bir məsuliyyətdir.

Səs verəcəyəm və həmkarlarımı da səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Nigar xanım, çıxışınıza görə çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələ ilə əlaqədar Hesablama Palatasının sədri hörmətli Vüqar müəllim bu gün bizimlədir.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır və məsələyə dair məlumat vermək üçün, Azər müəllim, Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, birinci oxunuşda müzakirəyə təqdim edilən qanun layihəsi ilə “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” qanunlara dəyişikliklər təklif olunur. Bu dəyişikliklər, hər şeydən əvvəl, ali audit sahəsində beynəlxalq standartları, o cümlədən INTOSAI-in prinsiplərini nəzərə almaqla, Hesablama Palatasının öz mandatına uyğun əhatəli və səmərəli fəaliyyəti üçün hüquqi bazanın təkmilləşdirilməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə dövlət maliyyəsi və onun idarə edilməsi sahəsində həyata keçirilən institusional islahatlar, büdcə prosesində şəffaflığın və hesabatlılığın gücləndirilməsi istiqamətində atılan addımlar ali audit qurumu kimi Hesablama Palatası qarşısında da yeni tələblər müəyyən edir və onun fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsini şərtləndirir.

Hesab edirik ki, müvafiq qanunlara təklif edilən dəyişikliklər, bir tərəfdən, dövlət maliyyəsi ilə bağlı yeni təşəbbüsləri tamamlayır, digər tərəfdən də, dövlət maliyyə nəzarətinin vahid sisteminin formalaşdırılması, büdcə vəsaitlərinin istifadəsi üzərində daha effektiv nəzarətin təmin edilməsi, ölkə üzrə fiskal intizamın daha da gücləndirilməsi üçün hüquqi institusional əsaslar yaradır.

Hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi ilə Hesablama Palatasına Naxçıvan Muxtar Respublikasının büdcə layihəsinə və büdcə icrası üzrə illik hesabatlarına rəy vermək səlahiyyəti verilir. Muxtar Respublikanın büdcəsi dövlət vəsaiti anlayışının tərkib hissəsi olaraq müəyyən edilir və palatanın audit, təhlil və nəzarət fəaliyyətinin əhatə dairəsinə daxil edilir.

Beləliklə, Hesablama Palatasının icmal büdcə, o cümlədən dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və büdcədənkənar dövlət fondları üzrə audit və analitik fəaliyyəti vahid qayda və metodologiya əsasında həyata keçiriləcəkdir.

Layihəyə əsasən, eyni zamanda, palatanın rəylərinin və hesabatlarının Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə də təqdim edilməsi nəzərdə tutulur.

Bir məqamı xüsusi ilə nəzərə almalıyıq ki, bu layihədə Muxtar Respublikanın büdcəsinə münasibətdə Hesablama Palatasına heç də yeni əlavə səlahiyyətlər verilmir. Palata tərəfindən həyata keçiriləcək funksiyalar “Büdcə sistemi haqqında” Qanunda təsbit edilmişdir. Bu baxımdan, qanun layihəsinin bu hissəsi ilə bağlı dəyişikliklər mahiyyətcə uyğunlaşdırma xarakterlidir və dövlət maliyyəsinin vahid standartlar əsasında auditinin aparılmasını nəzərdə tutur.

Hörmətli həmkarlar, dəyişikliklərdən biri də dövlət auditi ilə bağlı informasiya sistemindən istifadənin hüquqi əsaslarının yaradılmasıdır. Belə ki, palatanın dövlət auditi ilə bağlı informasiya sistemindən istifadə etməsi və elektron məlumat bazalarına çıxış imkanları müəyyən edilir. Bu, bir tərəfdən, dövlət auditi informasiya sisteminin formalaşdırılmasına, digər tərəfdən də, ənənəvi auditdən rəqəmsal auditə keçidə və bunun praktik tətbiqinə şərait yaradır.

Xüsusi olaraq vurğulamaq istərdik ki, elektron informasiya sistemlərindən audit zamanı istifadə edilməsi beynəlxalq səviyyədə geniş tətbiq edilən təcrübədir və son illərin mühüm çağırışıdır. Ali audit orqanının peşəkar fəaliyyətinin beynəlxalq qiymətləndirilməsi zamanı onların yetərli informasiya texnologiyalarına sahib olması və bunun audit prosesində tətbiqi əsas göstərici və meyarlardan biri kimi qəbul olunur.

Layihənin müddəalarına əsasən Hesablama Palatasına sığorta sirri təşkil edən məlumatları əldə etmək hüququ verilir və eyni zamanda, həmin məlumatların qorunması öhdəliyi də qanunvericiliklə təsbit olunur.

Palatanın ali maliyyə nəzarəti orqanı kimi sorğularına cavab verilməməsinə və audit prosesinə maneələrin yaradılmasına görə məsuliyyət tədbirləri müəyyən olunur.

Təklif olunan digər bir dəyişiklik beynəlxalq təcrübəyə uyğun olaraq, "dövlət auditoru" anlayışının qanunvericiliyə daxil edilməsidir. Özəl sektorda icazə əsasında fəaliyyət göstərən sərbəst auditorlardan fərqli olaraq, dövlət auditoru ali audit orqanından qərar qəbul edən və dövlət maliyyə nəzarətini həyata keçirən nümayəndəsidir.

Qeyd edilənləri ümumiləşdirərək bildirmək istərdik ki, layihə dövlət maliyyə nəzarətinin institusional əsaslarının gücləndirilməsinə, Hesablama Palatasının fəaliyyət imkanlarının genişləndirilməsinə, büdcə prosesində

şəffaflılığın və hesabatlılığın artırılmasına, büdcəyə parlament nəzarətinin gücləndirilməsinə və daha da təkmilləşdirilməsinə xidmət edir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, qeyd edilənləri nəzərə alaraq, layihənin birinci oxunuşda müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Mən görürəm ki, müzakirəyə heç kim yazılmayıb. Ona görə də mən məsələni birinci oxunuşda səsə qoyuram. Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Vüqar müəllimi də hörmətlə yola salırıq.

Hörmətli həmkarlar, biz gündəliyin növbəti məsələsinə keçirik. Bu məsələ “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Odur ki, Azər müəllim, mən sözü yenə də Sizə verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, birinci oxunuşda müzakirəyə təqdim edilən qanun layihəsi ilə “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi nəzərdə tutulur. Dəyişikliyə əsasən Ələt İqtisadi Zonasından əsas iqtisadi əraziyə gətirilən

mallara görə gömrük güzəştinin tətbiqi təklif olunur. Lakin bu güzəştlər üçün bir sıra şərtlər tələb olunur. Belə ki, gətirilən mallar Azərbaycan Respublikası mənşəli olmalı və azad zona hüquqi şəxsi tərəfindən istehsal edilməlidir. Həmin mal əsas iqtisadi ərazidə istehsala malik olmamalıdır. Çünki əks halda haqsız rəqabətə şərait yarana bilərdi. Məhsul tamamilə istehsal edilmiş və ya kifayət qədər emal olunma dərəcəsinə çatırılmalıdır. Bu malların azı 50 faizi ölkə hüdudlarından kənara ixrac edilməlidir. Bu şərtlərin hər biri istisnasız olaraq, eyni zamanda və toplu şəkildə əsas götürülür.

O da nəzərə alınmalıdır ki, gömrük güzəşti mal istehsal və ya emal edən azad zona hüquqi şəxsinin təsis olunduğu tarixdən 15 il müddətində qüvvədə qalacaq. Müvafiq mallar aidiyyəti icra hakimiyyəti orqanının təsdiq etdiyi siyahı və ya qaydalarla müəyyənləşəcəkdir. Qanunun 2027-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Hörmətli həmkarlar, güzəştlərin tətbiqi Azərbaycan mənşəli malların satış bazarını genişləndirir və idxalın əvəzləşdirilməsi prosesinə şərait yaradır. Yeni qanun layihəsi ilə bir daha aydın olur ki, Ələt İqtisadi Zonası təkcə ixrac yönümlü istehsal və logistika platforması deyil, o, həm də ölkəmizin daxili iqtisadiyyatına inteqrasiya olunmuş sənaye və investisiya mərkəzidir. Başqa sözlə, milli iqtisadiyyatımızın tərkib hissəsidir.

Qeyd edilənləri nəzərə alaraq, layihənin birinci oxunuşda müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun.

Müzakirəyə yazılan var. Rövşən Muradov. Buyurun.

**Rövşən Muradov.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputatlar, birinci oxunuşda müzakirəyə çıxarılan “Gömrük tarifi haqqında” Azərbaycan

Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

Hörmətli Azər müəllimin təqdim etdiyi qanun layihəsi, söylənildiyi kimi, yüksək əlavə dəyər yaradan investisiya layihələrini cəlb etməklə, Ələt Azad İqtisadi Zonasında ixrac məqsədli sənaye məhsullarının istehsalının inkişaf etdirilməsini, qeyri-neft sənayesinin rəqabət qabiliyyətinin artırılmasını və ölkənin uzunmüddətli dövrdə iqtisadi inkişaf istiqamətlərini dəstəkləmək məqsədi ilə hazırlanmışdır. Sözügedən məqsədlərə nail olmaq üçün azad zonanın investisiya mühitinin regionun digər azad iqtisadi zonaları ilə müqayisədə rəqabət qabiliyyətinin qorunması xüsusi əhəmiyyət daşıyır. Belə ki, hazırda azad iqtisadi zonada istehsal olunan malların əsas iqtisadiyyata gətirilməsi zamanı tətbiq olunan gömrük ödənişləri həmin məhsulların daxili bazarda rəqabət qabiliyyətini azaldır. Eyni zamanda, Azərbaycanın azad ticarət sazişləri bağladığı ölkələrdən, xüsusi ilə də MDB ölkələrindən idxal olunan bir sıra analoji məhsullar ölkə bazarına sıfır və ya güzəştli gömrük rüsumu ilə daxil olur. Nəticədə, azad zonada istehsal edilən məhsullar Azərbaycan mənşəli olmalarına baxmayaraq, daxili bazarda idxal məhsulundan daha yüksək vergiyə cəlb edilirlər. Bu uyğunsuzluq isə investisiya qərarlarının qəbul edilməsinə və yeni istehsal layihələrinin iqtisadi səmərəliliyinə mənfi təsir göstərir. Qanuna təklif olunan dəyişiklik məhz bu haqsız rəqabəti aradan qaldırmaqla, azad zonada istehsal olunan yerli məhsulların daxili bazarda idxalla bərabər şəraitdə fəaliyyətini təmin edəcəkdir.

Azad zonada istehsal olunmuş seçilmiş malların əsas iqtisadiyyata gətirilməsi dörd dəqiq şərtlə, – Azər müəllim qeyd etdi, – siyahı, mənşə, ixrac öhdəliyi və müddətlə əhatələnməklə gömrük rüsumundan azad edilməni nəzərdə tutur və digər vergi öhdəliklərinə şamil edilmir. Bu şərtlər

mexanizmin sui-istifadə hallarından qorunmasını və yalnız real iqtisadi nəticə əldə edən müəssisələrə dövlət dəstəyini təmin edir.

Nəhayət, qanuna təklif olunan dəyişikliyin ölkə iqtisadiyyatına gözlənilən faydaları aşağıdakı iqtisadi nəticələrin əldə ediləcəyini proqnozlaşdırır:

1. Azad zonaya yerli və xarici investisiyaların cəlb edilməsinin artırılması, investorların uzunmüddətli istehsal layihələrinə marağını artırmaqla bərabər, həm də yüksək texnologiyalı, əlavə dəyər yaradan istehsal layihələrinin stimullaşdırılmasını təmin edərək nəticədə qeyri-neft sənayesinin inkişafının sürətlənməsinə və iqtisadiyyatın şaxələndirilməsinə münbit şərait yaradacaqdır.

2. İxracyönümlü müəssisələrin sayının və istehsal güclərinin artması qeyri-neft ixracının genişlənməsinə, ölkəyə əlavə xarici valyutanın daxil olmasına səbəb olmaqla, eyni zamanda, yerli xammal və xidmət təchizatçılarının istehsal zəncirinə inteqrasiyasını gücləndirəcəkdir.

3. Yeni və daimi iş yerlərinin yaradılması və yüksək ixtisaslı kadrların hazırlanması nəticəsində ölkədə məşğulluğun səviyyəsi yüksələcək və müasir texnologiyaların, innovativ idarəetmə metodlarının və beynəlxalq istehsal standartlarının ölkədə tətbiqi genişlənəcəkdir.

4. Azad zonada istehsal olunan Azərbaycan mənşəli məhsulların daxili bazarda rəqabət qabiliyyəti artmaqla, vergi bazasının və uzunmüddətli perspektivdə dövlət büdcəsinin gəlirlərini artıracaqdır.

Beləliklə, qanun layihəsi qəbul edildikdən sonra Ələt Azad İqtisadi Zonası regionun aparıcı istehsal, logistika və sənaye mərkəzlərindən birinə çevriləcək və respublikamız regional və qlobal dəyər zəncirlərində mövqeyini möhkəmləndirməklə yanaşı, həm də sənayeləşmə, qeyri-neft

ixracının artırılması və iqtisadi diversifikasiya üzrə strateji hədəflərin həyata keçirilməsinə mühüm töhfələr verəcəkdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 14-cü məsələyə keçirik. Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədri Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, hesab edirəm ki, kifayət qədər əhəmiyyətli bir layihədir. İlk növbədə, onu söyləmək istəyirəm ki, son illər iqtisadi fəaliyyət sahəsində olan bir sıra cinayətlər dekriminallaşdırılmışdır. Bununla bağlı bizim VI çağırışda da böyük bir layihəmiz olmuşdu. İndi Cinayət Məcəlləsinə dəyişikliklə bağlı təqdim olunmuş layihənin bir hissəsi, hesab edirəm ki, onun davamıdır. Belə ki, layihəyə əsasən iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətlər və cinayət nəticəsində vurulmuş ziyan əgər tam ödənilərsə,

bundan əlavə vurulmuş ziyanın, yəni əldə edilmiş gəlirin artıq bir misli deyil, 50 faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən tam azad olunacaq. Onsuz da, qanunvericiliyə görə, vurulmuş ziyan ödənilməlidir. Amma hazırda ondan əlavə bir misli ödəyəndə şəxsin bu sahədə cinayətlərə görə məsuliyyətdən azad olunmaq imkanı var idi. İndi onun yarısı ödənilərsə, şəxs yenə cinayət məsuliyyətindən azad edilər. Hesab edirəm ki, iqtisadi fəaliyyət sahəsindəki törədilən pozuntulara münasibətdə bu, çox humanist bir addımdır.

Eyni zamanda, layihədə nəzərdə tutulur ki, bir sıra yeni əməllər də yalançı sahibkarlıq hesab olunacaq. Söhbət Cinayət Məcəlləsinin 193-cü maddəsinin dispozisiyasının genişləndirilməsindən gedir. Müqayisəli arayışda təqdim olunub, hamısını sadalamaq istəmirəm. Qanunsuz olaraq kredit alma, rüsumlardan azadolma və bir sıra əməllər də bundan sonra yalançı sahibkarlıq hesab olunacaq.

Üçüncü vacib element. Təklif olunur ki, Cinayət Məcəlləsinin 208-ci maddəsi ləğv edilsin. Hörmətli sədr, bu maddə “Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama” adlanır. Son dövrlər bir sıra sahibkarlar bu məsələ ilə bağlı çoxlu müraciətlər ediblər. Çünki bu, əsas etibarı ilə xarici iqtisadi fəaliyyəti həyata keçirən sahibkarlara aiddir. Yəni mal göndərirlər və onun müqabilində sonra pul qayıtmalıdır. Bizim qanunvericiliyə görə, o pul müvəkkil edilmiş bankın hesabına qayıtmalıdır. Amma bəzən digər ölkələrin qanunvericilikləri fərqli olur və onu zamanında qaytarmaq mümkün olmur. Yəni bu, sahibkardan asılı olmur və bu zaman o, cinayət məsuliyyəti ilə üzləşməli olur. Bu baxımdan, hesab edirəm ki, bu da çox humanist bir addımdır. Amma onu da vurğulamaq istəyirəm ki, bu əməl İnzibati Xətalar Məcəlləsində xəta kimi qalacaq, yəni Cinayət Məcəlləsindən çıxarılır,

cinayət təqibi olmayacaq. Bir daha vurğulamaq istəyirəm ki, bu sahədə fəaliyyət göstərən sahibkarlara münasibətdə çox humanist addımdır.

Cinayət Məcəlləsinə təklif olunan digər dəyişikliklər isə cəmiyyətimizi, ictimaiyyətimizi narahat edən çox vacib bir məsələ ilə bağlıdır. Söhbət Cinayət Məcəlləsinin 244-cü – qumar oyunlarının təşkili və ya keçirilməsi maddəsindən gedir. Təklif olunur ki, qumar oyunlarının təşkili və keçirilməsi təkcə real formada deyil, bundan sonra virtual formada da, yəni bu, internet şəbəkələri üzərindən, mobil rabitə şəbəkəsindən, sosial platformalarda və sairdə həyata keçirilərsə, – son dövrdə daha çox məhz o sahədə həyata keçirilir, – bu da cinayət məsuliyyətinə səbəb olacaq.

Eyni zamanda, qumar oyunlarının təşkili və ya keçirilməsi ilə bağlı sanksiyalar da burada dəqiqləşdirilir. Daha doğrusu, Cinayət Məcəlləsində indiyə qədər, yəni son dövrlər bizim etdiyimiz dəyişikliklərlə uyğunlaşdırılır, bir analogiya aparılır. Yəni hansı isə bir məbləğ çərçivəsində deyil, konkret olaraq təklif olunur ki, cərimə cinayət nəticəsində əldə edilmiş gəlirin iki misli miqdarında müəyyən ediləcək. Bir daha vurğulamaq istəyirəm, biz artıq bir sıra maddələrdə bunu etmişik, yəni faktiki olaraq analogiyadır, bu sahədən olan cinayətlərə də tətbiq olunur.

Burada vacib bir məsələ var. Təklif ondan ibarətdir ki, qumar oyunlarının təşkilinə və ya keçirilməsinə yetkinlik yaşına çatmayanların bu oyunlarda iştirakı ilə yol verilirsə, burada cəza sərtləşdirilir. Yəni bu qəbildən olan hadisələr də sərtləşdirilir. Hesab edirəm, bu, çox həssas məsələdir. Əminəm ki, həm bizim həmkarlar, xüsusən də İnsan hüquqları komitəsi, Ailə, qadın və uşaq məsələləri komitəsi, onların da mövqeyi hər zaman belə olub. Bir sıra müzakirələrdə səsləndirilib. Bizim borcumuz uşaqları, yetkin yaşına çatmayanları, əlbəttə ki, qorumaqdır. Biz bu qəbildən təklifi dəstəkləyirik.

Hörmətli sədr, mənim verdiyim məlumatlar Cinayət Məcəlləsi və ona uyğun olaraq, Cinayət-Prosessual Məcəlləsi ilə bağlı dəyişikliklərdir. Layihənin digər hissəsi isə hörmətli həmkarım Zahid müəllimin komitəsi ilə bağlıdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

İndi isə mən sözü İnsan hüquqları komitəsinin sədri Zahid Oruca verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, hörmətli Əli müəllim bütün o dəyişikliklərin mahiyyətini geniş izah etdi. Ona görə də qısa olaraq vurğulamaq istəyirəm ki, dövlət başçısının qanunvericilik təşəbbüsü qaydasında son 2 aya yaxın müddətdə gələn qanunların hamısı, doğrudan da, cəmiyyətin, xüsusi ilə də bu gün səs verdiyimiz məsələlər sırasında uşaqların təhlükəsizliyini qorumağa xidmət edir. Çünki virtual dediyimiz məkan artıq özü real bir məkana çevrilib və kriminal hadisələrin də mühüm bir hissəsi o məkanda baş verir. Ona görə də qanunvericiliyə müvafiq dəyişiklik edilən maddələri saymadan qeyd etmək istəyirəm ki, informasiyanın yerləşdirilməsi hallarında internet informasiya ehtiyatına müvafiq icra hakimiyyəti orqanının müraciəti ilə məhdudlaşdırma tədbiri həyata keçiriləcəkdir. Bu, çox zəruri olur. Çünki əgər hər hansı bir domen, hər hansı bir portal və ya bir informasiya subyekti qalırsa və fəaliyyəti orada görünürsə, artıq öz ziyanlarını törətmiş olur. Ona görə də belə müdaxilələr çox zəruridir.

Bizim həmkarlarımız Rəqəmsal İnkişaf Şurasının dünən keçirilən birinci iclasından danışdılar. Eyni zamanda, biz Milli Məclisin növbəti iclasında kibertəhlükəsizlik sahəsində bu müvafiq qanuna... Dünən də çıxışlarda hökumət nümayəndələri tərəfindən geniş vurğulanmışdı. Kiber məkanın fundamental olaraq dəyişikliyə məruz qalması və bu sahədə

hüquq sisteminin təkmilləşdirilməsi yönündə çox vacib bir layihə var. Mən orada geniş danışacağam. Ona görə biz də komitə olaraq hörmətli Əli müəllimin bu məsələ ilə bağlı qeyd etdiyi müddəaları müdafiə edirik və əminəm ki, çıxış edənlər də bu mövqedə olacaqlar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, biz müzakirəyə keçirik, yazılanlar var. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, sahibkarlığın və sahibkarın inkişafı baxımından Cinayət Məcəlləsinin 208-ci, yəni xarici valyuta vəsaitlərini xaricdən qaytarmama maddəsinin ləğvi mühüm hadisədir. Çünki müasir biznes artıq yalnız bir ölkə daxilində aparılmır. Sahibkar mal ixrac edir, xaricdə tərəfdaşla işləyir, logistika xərci ödəyir, yeni bazara daxil olur. Bəzən vəsaiti xaricdə saxlamaq məcburiyyətində qalır ki, növbəti müqaviləni yerinə yetirə bilsin. Belə vəziyyətdə hər gecikməni və ya hər maliyyə hərəkətini dərhal cinayət müstəvisinə çəkmək sahibkarın riskini artırırdı, onun qərarvermə azadlığını məhdudlaşdırırdı.

Dövlət son illərdə sahibkarlığın inkişafı üçün ciddi addımlar atsa da, bir çox problemlər isə qalmaqdadır. Vergi inzibatçılığının sadələşdirilməsini, biznesə münasibətdə elektron xidmətlərin kağız üzərində olsa da, genişləndirilməsini, qeyri-neft ixracının təşviqini, KOB-lara dəstək mexanizmlərini və kənd təsərrüfatının inkişafı ilə bağlı 6 milyardlıq proqramın da qəbul edilməsini müsbət qiymətləndirirəm. Bununla bağlı deməliyik ki, sahibkar hələ də xeyli problemlərlə üz-üzə qalmaqdadır. Bank kreditlərinə çıxış çətindir, faizlər yüksəkdir, girov tələbləri ağırdır. Bəzi yoxlamalar və icazə prosedurları biznes üçün əlavə yük yaradır. Məhkəmə

müdafiəsinə inam hər zaman yetərli deyil, region sahibkarı ilə paytaxt sahibkarının imkanları da eyni dərəcədə deyildir.

Təcrübədən görürük ki, sahibkarlığın inkişafı üçün yalnız cəza mexanizmlərini yumşaltmaq kifayət etmir. Biznes obyektlərinin yaradılması və genişləndirilməsi zamanı sənədləşmə prosesi hələ də şəffaf və sürətli deyil. Bir pəncərə sistemi formal olaraq mövcuddur, amma sahibkar yenə də müxtəlif qurumların qapısını döyməli olur. Torpaq, çıxarış, təyinat, tikinti icazəsi, kommunikasiya, yanğın və sanitariya rəyləri bəzən aylarla, hətta illərlə uzanır. Sahibkar investisiya qoymaq, iş yeri yaratmaq istəyir, amma sənəd yükü onun qarşısında maneəyə çevrilir. Ona görə də sahibkarlığa real dəstək istəyiriksə, sənədləşmə prosesi tam rəqəmsallaşmalı və hər qurumun məsuliyyəti aydın müəyyən edilməlidir. 208-ci maddənin ləğvi müsbət addımdır, amma biznesin nəfəs alması üçün bürokratik divarlar da aradan qalxmalıdır. Ona görə də dəyişiklik yalnız bir maddənin ləğvi kimi deyil, sahibkara münasibətin yumşalması kimi qəbul edilməlidir. Sahibkar cinayətkar kimi deyil, iqtisadiyyatın dayağı kimi görülməlidir. Əgər pozuntu varsa, ilk növbədə, maliyyə nəzarəti, vergi mexanizmləri və inzibati tədbirlər işləməlidir. Cinayət məsuliyyəti isə ən son vasitə olmalıdır. Beynəlxalq təcrübə də bunu göstərir. Avropa ölkələrində əsas yanaşma budur. Sahibkarın valyutanı harada saxlamasından çox, əməliyyatın şəffaflığına, verginin ödənilməsinə və çirkli pulların yuyulmamasına nəzarət edilir.

Gürcüstan və Qazaxıstan kimi ölkələr də daha çox riskəsaslı nəzarət modelinə keçir, biznesi cinayət təzyiqi altında saxlamaqdan uzaqlaşır. Hesab edirəm ki, 208-ci maddənin ləğvi sahibkarlıq azadlığını genişləndirən müsbət addımdır. Amma bu addımın real effekti o zaman olacaq ki, dövlət qurumları biznesə tərəfdaş kimi yanaşsınlar. Sahibkar nə qədər rahat nəfəs alarsa, ölkə iqtisadiyyatı da bir o qədər güclü olar.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun, Razi müəllim. Təkliflər də verdiniz, ancaq Sizin bir cümləniz var idi ki, bir pəncərə formal olaraq mövcuddur. Bir pəncərə formatı. Xeyr, formal olaraq mövcud deyil, yüzlərcə insan bundan faydalanır.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də hesab edirəm ki, bu, çox zəruri dəyişikliklərdir. Xüsusi ilə də 208-ci maddənin ləğv olunması bütöv çevrəmizdə, həm cənubda, həm də şimalda baş verən proseslərin fonunda sahibkarlığa böyük bir dəstəkdir. Çünki elə ölkələr var ki, onlar müharibə şəraitindədir, xaosdur, yaxud da hansı isə bir şəkildə orada iqtisadi müqavilələrin həyata keçirilməsində axsamalar var. Sahibkarlar da bunun bədəlini hər hansı bir şəkildə ödəməklə tamamilə müflisləşə bilərlər. Ona görə də bu maddənin ortadan qaldırılması olduqca vacibdir. Belə tələblər artıq sahibkarlar qarşısında qoyulmayacaqdır.

İkinci mühüm dəyişiklik qumar məsələsi ilə bağlıdır. Bu da çox vacibdir. Qumara aid ola biləcək sahələr, təbii ki, gəlirli sahələrdir, amma hər gəlirli sahə həm də mənəviyyat və insan həyatı üçün təhlükə yarada bildiyinə görə o sahələrə insanlar müəyyən dərəcədə həm investisiya qoymaqdan, həm də müəyyən məşğulluğu o sahəyə yönəltməkdən çəkinməlidirlər. Bu baxımdan da, belə bir maddənin olması və sanksiyanın, dispozisiyasının genişləndirilməsi, sanksiyanın artırılması, hesab edirəm ki, zəruridir. Bu, təkcə buna aid olmamalıdır. Məsələn, bizdə idman yarışının sağlamlıq təbliğ eləyən fəlsəfəsinin yanında, görürsən ki, reklam başladı və enerji içkisi reklamı olur. Halbuki bu enerji içkisi elə idmanın özünə əks bir məsələdir. Bunu təbliğ edərkən də kimlərsə qazanc götürmək istəyirsə,

bizim təbliğ eləmək istədiyimiz, dövlətin siyasətinin vacib istiqaməti olan sağlamlıq yönünü artıq təhlükə altında qoymuş olur.

Bir şeyi də qeyd edim ki, bizdə son vaxtlar xüsusən gənclər, yeniyetmələr arasında intiharların böyük əksəriyyətinin səbəbi də məhz qumar oyunlarına aludəçiliklə bağlıdır. Bu, aludə olan çox sayda uşaqların sonradan böyük bir borc altına girməsinə gətirib çıxarır və ona görə də belə bir məsələ olur.

Burada sahibkarlığın inkişafı ilə bağlı deyildi. Təbii ki, müsbət məqamlarla yanaşı, – hörmətli Əli müəllim də qeyd etdi, – biz sahibkarlığın müxtəlif hallarda neqativ adlandırılmasını da ortadan qaldırmalıyıq. Yəni Azərbaycanda baxış, hüquqda da termin olaraq qanuni sahibkarlıq və qanunsuz sahibkarlıq var. Əvvəldən də əlavə olunub, indi burada da biz ona “qanunsuz” sözünü əlavə edirik ki, yalançı sahibkarlığın doğru izahını verək. Yalançı sahibkarlıq, fırıldaqçı sahibkarlıq, qeyri-səmimi sahibkarlıq – bu ifadələr qanunsuz sahibkarlığa hansı isə bir müdaxilə edə bilməyəndə başqa adlar altında müdaxilə etmək imkanı yaradan terminlərdir. Biz bu terminlərdən uzaqlaşmalıyıq. Yəni “qanunsuz sahibkarlıqlar” kifayətdir, hansı isə şəkildə yeni adların artırılması, məncə, sahibkarlığın inkişafına və sahibkarlığın fəaliyyətinə də ciddi maneə törədən amillərdən birinə çevrilə bilir. Ona görə də bu cür dəyişikliklər olanda o terminlərin də yenidən dəyərləndirilməsi faydalı olardı.

Bu gün məşğulluqla bağlı ölkənin böyük bir problemi var. Hamımız insanları qəbul edirik, görürük. İş istəyən insanlar var və biz onları dövlət orqanlarına yönləndirəndə, təbii ki, orada da müəyyən tələblər var, o tələblərə cavab vermək bir az çətin olur. Müsahibə, müsahibə mərhələləri. Amma insanlar özəl sektorda hansı isə bir iş tapmaq üçün vasitə axtarırlar. Özəl sektorda da məhdudiyyətlər, yaxud da bu imkansızlıqlar olanda bu,

dövlətin yükünün olduğu kimi qalması deməkdir. Onun azalmasına çalışan istiqaməti götürməliyik ki, sahibkarlıq inkişaf etdikcə o iş yerlərinə də adamları yönləndirmək olur, alternativlər daha çox olur və ayrı-ayrı ixtisas sahibləri də özlərinə uyğun müəyyən ixtisaslar tapa bilirlər. Bir müəllim, həkim işdən çıxıbsa, biz onların, heç olmasa, özəl sektorda hansı isə formada iş tapma imkanları əldə etməsi üçün sahibkarlığa olan maneələri bacardıqca azaltmalıyıq və dəstəyimizi artırmalıyıq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, qanun layihəsi vacib olan layihələrdən biridir. Bir daha Azərbaycan dövlətinin humanizmə olan münasibətini özündə əks elətdirir. Dövlət başçısı tərəfindən sahibkarlığa həmişə yardım göstərilibdir. Əgər xatırlayırsınızsa, biz mütəmadi olaraq qeyri-qanuni yoxlamaların aradan qaldırılması, sahibkarlara şərait yaradılması, güzəştli kreditlərin verilməsi kimi halların şahidi olmuşuq və bu proseslər davamlı şəkildə həyata keçirilir.

Ümumiyyətlə, mən hesab edirəm ki, burada düşüncə tərzinin dəyişməsinə ehtiyac var. Sahibikarlıq nədir, onun fəaliyyəti nədən ibarət olmalıdır? Sahibkar birinci özü düşünməlidir və ondan sonra da yaratdığı hər hansı bir işi, qoyduğu hər hansı investisiyanı müəyyənləşdirməlidir. Dünya praktikasında da, başqa-başqa yerlərdə də baxsaq, görürük ki, istənilən sahibkar bir proqramı həyata keçirməkdən ötrü geniş bir layihə hazırlayır, tədqiqat aparır və nəticə etibarı ilə o sahədə nələr baş verə biləcək, onu proqnozlaşdırır. Sonra isə öz fəaliyyətinə başlayır.

Bizdə isə tamamilə fərqli yanaşma mövcuddur. Sahibkar elə başa düşür ki, qoyduğu investisiyanı bir ilin içində də götürməlidir. Yenə deyirəm,

dünya ölkələri praktikasında bir sahibkarın illik gəliri 10 faizdən artıq olursa, artıq onunla ciddi qurumlar məşğul olur. Çünki 10 faizdən artıq gəliri digər sahələrdən – ya insan alverindən, ya narkotik maddə alverindən, ya da silah alverindən əldə etmək olar. Qalan hallarda 10-15 faizdən artıq gəlir əldə etmək mümkün deyil. Bu halları nəzərə almaq lazımdır.

Burada sənədləşmə işi məsələsinə toxunuldu. Əksinə, mən hesab edirəm ki, bizdə sənədləşmə işi daha ciddi şəkildə olmalıdır. Bax, biz görürük ki, nə qədər evlər tikib satıblar, sənədləşmə işi düzgün getmədiyi halda isə vətəndaş ziyanda qalıb. Vətəndaş əlində nə varsa, verib, ev alıb. Sahibkar pulu yığıb, binanı isə başa çatdırmayıb, çıxıb, gedib. İndi belə çıxır ki, vətəndaş "havaya" pul veribdir. Binanın mərtəbələri hələ tikilib qurtarmayıb, amma vətəndaşın pulu gedib. Yəni elə bir sənədləşdirmə aparmaq lazımdır ki, vətəndaş burada əziyyət çəkməsin.

İkinci çox ciddi bir məsələ bu gün vətəndaşların aldadılması ilə bağlıdır. Orada çox düzgün olaraq qeyri-qanuni sahibkarlıq qeyd olunub. Vətəndaşlardan şəxsiyyət vəsiqələrini alaraq onların adlarına şirkətlər yaradırlar. Kənddə oturmuş bir şəxsə Dövlət Vergi Xidmətindən birdiriş gəlir ki, 60 min manat vergiyə borcu var, filan qədər ticarət dövriyyəsi həyata keçirib. Vətəndaş çox pis vəziyyətdə qalır, hara müraciət edirsə, deyirlər ki, sənədlər qaydasındadır, sənədlərə əsasən də sən bu işi görmüsən. Hansı ki ailəsini güclə dolandıran bir vətəndaşdır. Yaxud da xaricə getmək istəyir, saxlayırlar ki, sənin vergiyə borcun var. Deyir, axı, mən heç ticarətlə məşğul olmamışam, sahibkarlıqla məşğul olmamışam, harada isə dərs deyirəm, müəlliməm. Lakin kimsə onun adından istifadə edib.

Burada da göstərilir ki, internet resurslarından, digər resurslardan istifadə etməklə qeyri-qanuni gəlirlərin əldə olunması. Mən hesab edirəm ki, bunların da qarşısı ciddi şəkildə alınmalıdır. Ən əsası vətəndaşdır,

vətəndaşın hüquqları qorunmalıdır. Dövlət vətəndaşının hüquqlarını qorumalıdır.

Biz nə qədər şahidi oluruq ki, pensiyaçıların, ayrı-ayrı adamların kartlarından pulları çıxardırlar və onu geri qaytarmaq artıq qeyri-mümkün hala çevrilir. Təbii ki, bu məsələni araşdırıb ortaya çıxartmaq hüquq mühafizə orqanlarında da çətinlik yaradır. O baxımdan, hesab edirəm, biz, yüngülləşdirmə ilə yanaşı, bu cür hallara qarşı qanunları həm də sərtləşdirməliyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə təklif olunan və virtual formada, o cümlədən internet şəbəkəsindən, mobil rabitə şəbəkəsindən, sosial şəbəkə platformalarından, digər elektron rabitə vasitələrindən, habelə internet və mobil telekommunikasiya tətbiqlərindən və digər texnologiyalara əsaslanan platformalardan istifadə etməklə qumar oyunlarının təşkilini və ya keçirilməsini kriminallaşdıran dəyişiklik konseptual baxımdan virtual məkanda törədilən cinayət əməllərinin qarşısının alınmasını və onlara görə cinayət məsuliyyətinin və cəzanın labüdlüyünü təsbit edir.

Müasir cinayətkarlığın strukturu və dinamikasının müşahidə olunan uzunmüddətli meyilləri birmənalı olaraq nümayiş etdirir ki, mütəşəkkil cinayətkar qruplar və fərdi kriminal elementlər cinayət yolu ilə əldə edilən gəlirlərin leqallaşdırılması, virtual aktivlərin dövriyyəsi sahəsində kiberdələduzluq, sürətlə inkişaf edən və artıq neqativ beynəlxalq trendə çevrilən qanunsuz qumar oyunlarının təşkili – “qemblinq”in törədilməsi

məqsədi ilə informasiya-kommunikasiya texnologiyalarından fəal formada istifadə edirlər.

Nəzərə almaq lazımdır ki, virtual məkanda qumar oyunlarında iştirak edən şəxslər həddindən artıq ciddi xarakter daşıyan təhlükələrlə üzləşirlər. Bu sırada xüsusi olaraq fərdi məlumatların, məsələn, bank məlumatlarının cinayətkar qruplar tərəfindən ələ keçirilməsi və qanunsuz olaraq istifadə olunması qeyd edilməlidir. Tamamilə aydındır ki, bu cür əməllər insanlar üçün çox ağır nəticələrə, əhəmiyyətli maliyyə itkilərinə gətirib çıxara bilər.

İnformasiya-kommunikasiya texnologiyalarının vasitəsi ilə fərdi məlumatların əldə edilməsi, emalı, toplanması və ötürülməsi əsaslı formada asanlaşmışdır və qumar oyunlarında iştirak edən şəxslər öz razılıqlarını cinayətkarlara verdikdə şəxsi xarakter daşıyan oyunçu məlumatlarını qanunsuz olaraq emal etməyə imkan yaratdıqlarından xəbərsiz olurlar və belə bir vəziyyət müxtəlif cinayətlərin törədilməsi üçün münbit zəmin yaradır.

Onlayn qumar oyunları iştirakçılarının fərdi məlumatlarının geniş çapda yayılması təhlükəli xarakter daşıyır və gələcəkdə müxtəlif cinayət əməllərinin – çirkli pulların leqallaşdırılmasında, oğurluqda, maliyyə fırıldaqçılığında və sair qanunazidd əməllərin törədilməsində istifadə oluna bilər. Məsələn, bir müddət əvvəl “Google” və “Yahoo” kimi standart axtarış sistemləri ilə indeksləşdirilməyən internetin görünməyən hissəsi – “Darknet”də 10 milyon onlayn qumar oyunçularının fərdi hesablarında olan şəxsi məlumatlar toplusu – elektron poçt ünvanları, telefon nömrələri, yaşadıqları ünvanlar, maliyyə məlumatları və sair satışa çıxarılmışdır. Bu, çox təhlükəli tendensiyadır və onun qarşısının alınmasında cinayət-hüquq vasitələrindən səmərəli formada istifadə etmək lazımdır. Müzakirəyə təqdim edilən layihədə bu istiqamətdə əhəmiyyətli addımları nəzərdə tutur.

Ayrıca olaraq qeyd etmək istərdim ki, qanunazidd, nəzarətsiz qumar oyunlarında iştirak edən şəxslər həmçinin ciddi təhlükə yaradan qumar oyunlarında patoloji asılılıqla – ludomaniya ilə üzləşə bilərlər.

Qanun layihəsinin qəbulu əhəmiyyətli xarakter daşıyacaq və virtual məkanda cinayət fəaliyyətinin qarşısının alınmasında və cinayət törədən şəxslərin cəzalandırılmasında əhəmiyyətli rol oynayacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, Ziyafət müəllim söz istəyib. Buyurun.

**Ziyafət Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, mən bir məsələyə öz fikrimi bildirmək istəyirəm. Hörmətli Fazil müəllim burada belə bir təklif irəli sürdü ki, bütün qanunsuz sahibkarlıq formalarına bir ad qoyulsun. Sadəcə, yadınıza salmaq istəyirəm, Fazil müəllim, burada cinayət qanunvericiliyinin yanaşması başqa cürdür. Biz hər qanunsuz sahibkarlığa eyni ad versək, gərək onda bütün qanunsuz hərəkətlərə Cinayət Məcəlləsində bir maddə yazaq, bununla da məsələ bitsin.

Təsəvvür eləyin ki, məsələn, vətəndaş hüquqi şəxs yaratmaq adı ilə bankdan kredit götürür, amma fiziki şəxs formasında yaradır. Bu, məsələnin bir tərəfi. Yaxud fiziki şəxsi adı ilə götürür, amma həmin pulu başqa təyinata istifadə edir. Bunlar başqa-başqa şeylərdir. Fırıldaqçılıq, yalançılıq, dələduzluq – bu növlərin məsuliyyətləri fərdidir. Yəni törədilən əməlin ağırlığına görə bu adlara uyğun olaraq, məsuliyyət müəyyən olunur. Məsuliyyət də müəyyən olunanda sanksiyalar da müxtəlif olmalıdır. Ona görə yalançılıq, fırıldaqçılıq, dələduzluq, vicdansızlıq – bunların hamısını qanunsuz sahibkarlıq adı ilə uyğunlaşdırıb bir maddə ilə tövsif etsək,

əlbəttə, düzgün deyil. Törədilən hər bir cinayətin öz ictimai təhlükəlilik dərəcəsi var. Ona uyğun olaraq da sanksiya və məsuliyyət müəyyən olunur.

Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Lazım olsa, bu barədə işçi qaydada danışarsınız.

Hörmətli həmkarlar, müzakirələr bitdi və mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

## *EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ*

## *30 iyun 2026-cı il*

**Asif Əsgərov.** Bir neçə gün öncə xalqımız böyük qürur hissi ilə Silahlı Qüvvələr Gününü qeyd etdi. Bu bayram hər birimizə bir daha sübut etdi ki, bu gün Azərbaycan Ordusu regionun ən qüdrətli, ən müasir və müzəffər hərbi gücüdür. Son illər ərzində həyata keçirilən hərbi islahatlar, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi və şəxsi heyətin peşəkarlığının artırılması dövlətimizin milli təhlükəsizliyinin ən etibarlı təminatına çevrilmişdir. Artıq illərdir ki, bu müqəddəs tarix, sadəcə, bir peşə bayramı deyil, həm də azadlığımızın, Zəfərimizin və milli birliyimizin təntənəsi kimi qeyd olunur. Çünki Azərbaycan Ordusu xalqımızın sarsılmaz iradəsinin hərbi formadakı təcəssümüdür. Bu gün Azərbaycan əsgəri təkcə sərhədlərimizi qorumur, həm də regionda dayanıqlı sülhün və sabitliyin ən böyük rəhnidir.

Biz bu zirvəyə çox çətin, keşməkeşli və ağrılı yollardan keçərək gəlmişik. 1990-cı illərin əvvəllərində ordumuzun necə ağır, pərakəndə şəraitdə olduğunu unutmamışıq. O illərdə hakimiyyəti qəsb edən cəbhəçilərin idarəçilikdəki total yarıtmazlığı və dövlətçilik şüurundan uzaq olması səbəbindən cəbhə xətti faktiki olaraq taleyin ümidinə buraxılmış və hərbi intizam tamamilə məhv edilmişdi. Bu hal mühüm strateji mövqelərimizin düşmənə təslim edilməsinə birbaşa şərait yaratmışdı. O dövrün rəhbərliyinin – Rəhim Qazıyev və İsa Qənbər kimi şəxslərin acizliyi, qorxaqlığı və səriştəsizliyi nəticəsində yaranan xaos ölkəmizi ağır hərbi məğlubiyyətə sürükləmişdi. Lakin Azərbaycan xalqı bu tənəzzüllə və işğal faktı ilə heç vaxt barışmadı. Tarixin bu acı səhifələrinə, çətinliklərə baxmayaraq, biz sarsılmadıq, xalq və dövlət olaraq yenidən ayağa qalxdıq

və torpaqlarımızı geri aldıq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 30 illik işğala son qoyaraq Qarabağda və Şərqi Zəngəzurda tarixi ədaləti, ölkəmizin suverenliyini bərpa etdi. Azərbaycan əsgəri Şuşada, Xankəndidə, Xocalıda qəhrəmanlıq dastanı yazaraq xalqımızın başını uca etdi və ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi.

Bu gün o torpaqlarda dalğalanan bayrağımız bizim milli qürurumuzdur. Bizə bu müqəddəs zəfəri bəxş edən, canını vətənə sipər edən hər bir əsgər və zabitimiz fəxrimizdir. Bu Qələbəni bizə yaşadan bütün qəhrəmanlarımıza minnətdarıq.

Allah şəhidlərimizə rəhmət eləsin! Onların ruhu qarşısında baş əyir, qazilərimizə şəfa arzulayır və bir daha Silahlı Qüvvələr Günü münasibəti ilə ordumuzu ürəkdən təbrik edirəm.

Silahlı Qüvvələrimizin rəşadəti daimi olsun!

**Azər Kərimli.** Avropa Şurası Parlament Assambleyasının Azərbaycanla bağlı qəbul etdiyi növbəti qətnamə bu qurumun artıq çoxdan obyektivlik, hüquq və ədalət prinsiplərindən uzaqlaşdığını bir daha göstərir. Təəssüf ki, Avropa Şurası son illər insan hüquqları adı altında selektiv yanaşma nümayiş etdirən, ikili standartlarla işləyən və ayrı-ayrı dövlətlərə qarşı siyasi təzyiq alətinə çevrilmiş platforma olub.

Azərbaycanla bağlı qəbul olunan sənədlərdə obyektivlik deyil, qərəz, hüquqi qiymətləndirmə deyil, siyasi ittiham, dialoq deyil, təzyiq cəhdi görünür. Eyni qurum illərlə Azərbaycanın torpaqlarının işğal altında qalmasına, yüz minlərcə azərbaycanlının fundamental hüquqlarının pozulmasına, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıda bilməməsinə lazımi prinsipial münasibət göstərmədiyi halda, bu gün Azərbaycana dərs verməyə çalışır.

Avropa Şurası öz missiyasına sadiq qalmaq istəyirsə, əvvəlcə öz daxilindəki qərəzli yanaşmaları, siyasi sifarişləri və ayrı-seçkili münasibəti aradan qaldırmalıdır. İnsan hüquqları məsələsi heç bir halda suveren dövlətlərə qarşı təzyiq vasitəsinə çevrilməməlidir. Hüquqdan danışan qurum hüququ siyasi maraqlara tabe etdikdə, onun qəbul etdiyi sənədlərin mənəvi və siyasi çəkisi sıfıra bərabər olur.

Azərbaycan müstəqil dövlətdir və öz daxili məsələlərini Konstitusiyası, qanunları və milli maraqları əsasında həll edir. Heç bir beynəlxalq təşkilat Azərbaycanın suverenliyinə, məhkəmə sisteminə və daxili qərarlarına diktə dili ilə yanaşa bilməz. Əməkdaşlıq yalnız qarşılıqlı hörmət, bərabərhüquqlu dialoq və obyektiv münasibət əsasında mümkündür.

Bu qətnamə Azərbaycana qarşı növbəti qərəzli siyasi kampaniyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir. Belə sənədlər nə insan hüquqlarına, nə də Avropa ilə Azərbaycan arasında etimadın güclənməsinə xidmət edir. Əksinə, Avropa Şurasının özünün obyektivliyinə, ədalət prinsipinə və siyasi tərəfsizliyinə ciddi suallar yaradır.

Təəssüf doğuran məqamlardan biri də odur ki, Azərbaycanın bəzi radikal müxalifət nümayəndələri və xaricdə oturub ölkəmizə qarşı kampaniya aparan bəzi bloqerlər bu qətnaməni sanki öz siyasi uğurları kimi təqdim edir, ondan açıq şəkildə məmnunluq duyurlar. Onların Azərbaycan əleyhinə qəbul edilən sənədlərə sevinməsi bir daha göstərir ki, bu dairələr üçün əsas məqsəd Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaqdır.

Dövlətinə qarşı qərəzli sənədlərin qəbulunu alqışlamaq siyasi mübarizə deyil, milli maraqlara etinasızlıqdır. Normal siyasi rəqabət ölkənin xaricdə təzyiq hədəfinə çevrilməsinə sevinmək üzərində qurula bilməz. Azərbaycanın daxilində siyasi baxışlar fərqli ola bilər, lakin dövlət maraqları,

suverenlik və ölkənin beynəlxalq nüfuzu heç bir halda şəxsi ambisiyaların və radikal siyasi hesabların qurbanına çevrilməməlidir.

**Ceyhun Məmmədov**. Bir neçə gün öncə ölkəmiz bir çox tədbirlərdə olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasına da uğurla ev sahibliyi etdi. Öncə hörmətli xanım sədri və həmkarlarımı bu mötəbər tədbirin öz işini uğurla başa vurması münasibəti ilə səmimi-qəlbdən təbrik edirəm. Bu, bir daha göstərir ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün mötəbər tədbirlərə uğurla ev sahibliyi edir. Eyni zamanda, parlament diplomatiyası öz missiyasını uğurla həyata keçirir.

Beynəlxalq tədbirdə 40-dan çox ölkənin parlament nümayəndə heyəti, 10-dan çox ölkə spikeri və 10 beynəlxalq təşkilatın nümayəndələri iştirak edərək "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" mövzusunda müzakirələr apardılar.

Tədbir çərçivəsində təşkilatın Baş Komitəsinin, İcraedici komitəsinin, Baş Katiblər Assosiasiyasının, Siyasi məsələlər və beynəlxalq əlaqələr, İqtisadi məsələlər və ətraf mühit, Hüquqi və mədəni, sivilizasiyalar və dinlərarası dialoq məsələləri, İnsan hüquqları, qadın və ailə məsələləri komitələrinin, həmçinin qurumun digər strukturlarının iclasları keçirildi.

Xüsusi vurğulamaq lazımdır ki, tədbirdə 400-dən artıq nümayəndə iştirak edirdi. Bu qədər qonağın iştirakı çox nadir hallarda baş verir. Qeyd edim ki, iştirakçıların sayı baxımından bu konfrans digər tədbirlərdən tamamilə seçilirdi. Ünsiyyətdə olduğumuz qonaqların hamısı tədbir haqqında çox yüksək fikirlər söylədilər.

Heç sübhəsiz ki, 50-dən çox müsəlman ölkəsi arasında ölkəmizin belə bir mötəbər tədbirə ev sahibliyi üçün seçilməsi ayrıca xüsusi önəm daşıyan

məsələdir. Bir neçə gün bundan öncə də ölkəmizdə İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantısı keçirilmişdi. Bütün bunlar ölkəmizin müsəlman dünyasının bir parçası olaraq üzərinə düşən missiyanı uğurla yerinə yetirdiyini göstərir.

**Jalə Əliyeva.** Azərbaycanın növbəti dəfə yüksək səviyyəli beynəlxalq tədbirinə – İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının toplantısına evsahibliyi etməsi və Milli Məclisin bu platformadakı fəal rolu ölkəmizin beynəlxalq nüfuzunun daha bir göstəricisidir. Bu uğur təsadüfi deyil. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil və prinsipial xarici siyasət nəticəsində Azərbaycan bu gün İslam dünyasının etibarlı tərəfdaşı, dialoq və əməkdaşlığın təşviqinə töhfə verən nüfuzlu dövlətdir. Milli Məclis də parlament diplomatiyası vasitəsi ilə ölkəmizin mövqeyini beynəlxalq platformalarda ardıcıl şəkildə müdafiə edir.

İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi Azərbaycanın müsəlman ölkələri ilə həmrəyliyə, qarşılıqlı hörmətə və ortaq dəyərlərə verdiyi önəmin bariz ifadəsidir. Bu platformada ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq hüquqa əsaslanan mövqeyi daim dəstək qazanır. Milli Məclisin bu istiqamətdə qazandığı növbəti uğur Azərbaycanın parlament diplomatiyasının gücləndiyini, beynəlxalq etimadın artdığını və ölkəmizin qlobal qərarların müzakirə olunduğu mühüm platformalarda söz sahibi olduğunu bir daha təsdiqləyir.

Əminik ki, bu uğurlar bundan sonra da davam edəcək, Azərbaycan İslam dünyasında həmrəyliyin, əməkdaşlığın və inkişafın möhkəmlənməsinə öz töhfəsini verməyi davam etdirəcək.

**Kamal Cəfərov.** Müzakirə etdiyimiz layihə ümumi təhsil sistemimizin ən həssas tərəfi olan məktəb mühiti və nizam-intizam məsələsini birbaşa əhatə edir. Hamıya aydındır ki, təhsil bilik verməklə yanaşı, həm də vizual

mədəniyyətin və bərabərliyin formalaşdırılmasıdır. Xüsusən də məktəblərdə geyim standartlarının qeyri-müəyyən olması sosial tarazsızlıq hissi yaradır, pedaqoji heyətlə şagirdlər arasında vizual sərhədləri pozur və bütövlükdə, prosesə mane olurdu.

Qanun layihəsini incələdikdə aydın olan bir neçə praktiki məqamı vurğulamaq vacibdir. 12.13-cü maddəyə edilən əlavələr konkret imkan yaradır ki, şagirdlərin, həmçinin təhsilverənlərin də geyim tələbləri hüquqi çərçivəyə salınsın. Bu, məktəbdə peşəkar mühitin qorunmasını bilavasitə təmin edəcək. Qeyd olunan əlavə bu qaydalara riayət olunması öhdəliyini valideynlərin və ya digər qanuni nümayəndələrin üzərinə qoyur və bu cür tələb idarəçiləri və ailələri ortaq məsuliyyətə məcbur edəcək.

Digər mühüm məqam isə 3.1-ci maddəyə əlavədə əksini tapan “millilik və dünyəvilik” prinsipidir. Milli dəyərlərlə dünyəvi elmin vəhdəti təhsil sistemimizin müasir standartlara uyğunlaşmasını təmin edən bir norma kimi mühüm rola malikdir.

Yekun olaraq qeyd etmək istərdim ki, bu dəyişikliklər təhsil mühitində nizamı və bərabərliyi bərpa etmək üçün real vasitədir. Layihənin təsdiqlənməsi həm cəmiyyətin məktəbə etimadını artıracaq, həm də təhsil sistemimizi daha işlək vəziyyətə gətirəcək.

***

Bu gün qarşılaşdığımız qlobal iqtisadi reallıqlar daxili istehsalın artırılması üçün daha çevik addımlar atmağımızı tələb edir. Gömrük tarifləri ilə bağlı təklif olunan dəyişiklik, sadəcə, inzibati düzəliş hesab olunmamalıdır, Ələt Azad İqtisadi Zonasının ölkənin real iqtisadiyyatına inteqrasiyasını təmin edən mühüm bir iqtisadi amildir.

İndiyə qədər azad zonaların daxili bazarla münasibətlərində müəyyən rəqabət bərabərsizliyi var idi. Orada istehsal olunan milli mallarımızın

ölkəyə daxil olarkən rüsumlarla yüklənməsi, onların sərbəst ticarət sazişimiz olan ölkələrdən gələn idxal məhsulları qarşısında rəqabət imkanlarını məhdudlaşdırırdı. Bu qanun layihəsi həmin boşluğu aradan qaldıraraq daxili bazarda yerli istehsal üçün əlverişli mühit formalaşdırır.

Konseptual olaraq yanaşsaq, sənəddə əks olunan 50 faizlik ixrac şərti olduqca rasional bir mexanizmdir. Bu tələb investorların daxili bazarda inhisarlaşmasının qarşısını alır, onları xarici bazarlara yönəlməyə təşviq edir və ölkəyə valyuta axınını təmin edir. 15 illik güzəşt müddəti isə biznes mühiti üçün uzunmüddətli sabitlik və proqnozlaşdırıla bilən gələcək vəd edir.

Yekun olaraq qeyd edim ki, qanunun 2027-ci ildən qüvvəyə minməsi isə həm gömrük, həm də sahibkarlıq subyektlərinə yeni qaydalara tam uyğunlaşmaq üçün ağlabatan müddət müəyyən edir. İqtisadiyyatımızın rəqabət qabiliyyətini gücləndirəcək bu layihəni birinci oxunuşda konseptual olaraq dəstəkləyirəm.

***

Təqdim olunan qanun layihəsi cinayət qanunvericiliyimizin müasir iqtisadi və texnoloji reallıqlara uyğunlaşdırılması baxımından mühüm bir addımdır. Qeyd etməliyəm ki, layihə, bütövlükdə, iki əsas xətti, yəni iqtisadi sahədə dekriminallaşdırma və rəqəmsal mühitdə təhlükəsizliyin gücləndirilməsini ehtiva edir.

Diqqət çəkən mühüm yanaşma iqtisadi cinayətlər zamanı dövlətə vurulan ziyanın ödənilməsi müqabilində tətbiq edilən maliyyə sanksiyalarının humanistləşdirilməsidir. Ziyanın ödənilməsi şərti ilə məsuliyyətdən azadolma faizinin aşağı salınması və bəzi müddəaların tamamilə ləğvi iqtisadi mühitdə fəallığı qorumağa yönəlib. Bu, biznes subyektlərinə hüquqi sistem daxilində bərpa imkanı tanıyan bir yanaşmadır.

Digər tərəfdən, rəqəmsal dünyanın gətirdiyi yeni risklərə də əhəmiyyət verməyə bilmərik. Virtual mühitdə, sosial şəbəkələrdə və mobil tətbiqlərdə qanunsuz qumar oyunlarının təşkili kimi neqativ halların qarşısının alınması üçün cəza mexanizmlərinin sərtləşdirilməsi tamamilə adekvat haldır. Texnologiyanın imkanlarından sui-istifadə edərək gəlir əldə edənlərə qarşı sanksiyaların birbaşa əldə olunan gəlirin misli ilə ölçülməsi hüququn ədalət prinsipini əks etdirir. Eyni zamanda, informasiya məkanında qanunsuz kontentin qarşısının operativ alınması üçün təklif edilən məhdudiyyətlər də rəqəmsal təhlükəsizliyimizi qoruyur.

**Malik Həsənov.** Azərbaycan Ordusunun yaranmasından 108 il keçir. 26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür. Dövlətimiz, xalqımız üçün böyük əhəmiyyətə malik olan bu bayram Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Sərəncamı ilə qeyd edilir. Həmin sənədə əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı tarix – 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub. Azərbaycan Ordusunun bir əsrdən artıq tarixinin mühüm, qürurverici səhifəsi olan tarixi Zəfərimiz, bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpası keçilən yolun təqdimatı oldu. 44 gündə 30 ilin işğalına son qoyub dünya hərb tarixinə yeni səhifə yazan rəşadətli Ordumuz nəyə qadir olduğunu nümayiş etdirdi. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması – bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Silahlı Qüvvələrimizin inkişaf tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin hakimiyyətinin hər iki dövründə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. Ordu quruculuğu sahəsində mühüm nailiyyətlər sırasında Ulu Öndər Heydər Əliyevin 1971-ci ildə böyük zəhməti sayəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin – görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasını qeyd etməliyik. Bu məktəbin fəaliyyəti Azərbaycanda hərbi sahəyə marağın artmasına, azərbaycanlı zabit kadrların hazırlanmasına geniş imkanlar yaratdı.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrdə də ordu quruculuğu xüsusi diqqətdə oldu. Müstəqilliyimizin bərpasının ilk illərində yaşanan faciələr, təhlükələr yaddaşlardadır. Bunlar həmin dövrün iqtidarının yarıtmaz siyasətinin nəticəsi idi.  Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Həm iqtisadi, həm siyasi, həm də hərbi böhran hökm sürürdü. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımız əldən gedirdi. 1992-ci ilin mayında Şuşanın və Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı nəticəsində Dağlıq Qarabağ ilə Ermənistan arasında bir bağlantı əldə edilmişdir. AXC–Müsavat cütlüyünün hakimiyyəti dövrü gənc ölkə üçün çox təhlükəli illər, böyük sınaq idi.

Ölkə iqtidarı  Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli işin öhdəsindən gələ bilmədi. Nizami ordudan əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Belə bir ağır vaxtda xalqın

təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi. 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.

Ordu quruculuğu prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Belə ki, Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun “Sülh naminə tərəfdaşlıq” Proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə “Planlaşdırma və analiz prosesi” Proqramına, 2001-ci ildə isə “Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı”na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədi. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.

Son 22 ildən artıq dövrdə Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev ordu quruculuğuna xüsusi diqqət göstərdi, uğurlu nəticələr göz önündədir. Məhz dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna

çevrildi. Təsadüfi deyil ki, nüfuzlu “Global Fire Power” mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Ölkəmizin son illərdə dinamik inkişafı silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarı ilə ordumuzun güclənməsi ilə müşayiət olunması ölkə Prezidentinin ordu quruculuğu ilə əlaqədar öz vədinə sadiq olduğunu təsdiq edir. Hər il dövlət büdcəsindən müdafiə xərclərinə böyük vəsait ayrılır. Təkcə son 2 ilin statistik rəqəmlərinə diqqət yetirmək kifayətdir. 2025-ci ildə dövlət büdcəsinin müdafiə və təhlükəsizlik xərcləri 1 milyard 738 milyon manat artırılaraq 8 milyard 396,3 milyon manata çatdırılıb. 2026-cı ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8 milyard 714,8 milyon manat vəsait yönəldilib.

Dövlət başçısı İlham Əliyevin uğurlu siyasəti xalqımızın səbirsizliklə gözlədiyi Qələbə gününü addım-addım yaxınlaşdırdı: 2016-cı ilin 2 aprel tarixində Ermənistan ordusunun təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərcə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu 4 günlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı. Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən 2 il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat

nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu. Nəhayət, 2020-ci il sentyabrın 27-də düşmən təxribatına cavab olaraq Azərbaycan Ordusunun Zəfərlə nəticələnən haqq yürüşü başladı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa edildi, Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə bayrağımız ucaldıldı.

Zəfərlərimiz müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun məğlubedilməzliyini bir daha nümayiş etdirdi. 44 günlük İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində də hərbi gücümüzün daha da artırılması istiqamətində davamlı addımlar atılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir. Vətən müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik, yüksək dağlıq və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin yaradılması zərurətini ortaya qoydu. Prezident İlham Əliyevin tapşırığı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissəsi yaradıldı. Komando qüvvələrinin yaradılması ordunun döyüş qabiliyyətinin artırılması üçün önəmli amillərdən biridir. Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin

təkmilləşdirilməsi məqsədi ilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılıb. Prezident İlham Əliyevin milli ordumuzun Türkiyə ordusunun modeli əsasında yenidən qurulması təşəbbüsü çağdaş dövrün çağırışlarına və Azərbaycanın müdafiə qabiliyyətinin daha da artırılmasına hədəflənən ordu quruculuğu strategiyasıdır. Bu strategiyanın uğurla həyata keçirilməsi Azərbaycan Ordusunun hərbi-texniki göstəricilərini daha yüksək səviyyəyə qaldırılmasını təmin edir və ölkəmizin müdafiə qabiliyyətini qat-qat artırır. Türkiyə hərbi sənayesi ilə milli hərbi sənayemizin birgə əməkdaşlığı qarşıya qoyulan məqsədlərə nail olunmasına mühüm töhfələr verir.

Qısa təhlil Azərbaycan Ordusunun keçdiyi şərəfli yola bələdçilik edən 108 illik tarixin aydın mənzərəsini yaradır. 108 ildə qazanılan təcrübə, zəfərlər gələcəyə daha böyük inamla addımlamağa stimul verir. Müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuza diqqət və qayğı davamlıdır.

**Polad Bülbüloğlu.** Müzakirə olunan “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət qulluğu hər bir dövlətin səmərəli fəaliyyətinin və vətəndaş razılığının əsas sütunlarından biridir. Dövlət qulluqçusu yalnız inzibati funksiyaları yerinə yetirən şəxs deyil, o, dövlətlə vətəndaş arasında etimad körpüsüdür. Buna görə də dövlət qulluğu sahəsində qanunvericiliyin müasir çağırışlara uyğun olması daim diqqət mərkəzində saxlanılmalıdır.

Son illərdə ölkəmizdə dövlət idarəçiliyinin rəqəmsal fəaliyyətə keçməsi, elektron xidmətlərin genişləndirilməsi və idarəetmədə innovativ yanaşmaların tətbiqi istiqamətində mühüm addımlar atılmışdır. Bu dəyişikliklər isə öz növbəsində dövlət qulluğunun hüquqi bazasının da yenilənməsini zəruri edir.

Təklif olunan dəyişikliklər dövlət qulluğunda peşəkarlığın artırılmasına, insan resurslarının daha səmərəli idarə olunmasına, kadr potensialının güclənməsinə və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi mexanizmlərinin təkmilləşməsinə xidmət edir.

Eyni zamanda, qanun layihəsi dövlət qulluğunda şəffaflığın və etik davranış prinsiplərinin daha da möhkəmlənməsinə yönəlmişdir. Bu gün cəmiyyət dövlət qurumlarından, sadəcə, xidmət deyil, həm də yüksək peşəkarlıq, obyektivlik və məsuliyyət gözləyir. Təklif olunan dəyişikliklər məhz bu gözləntilərə töhfə verəcəkdir.

Qanun layihəsinin digər mühüm cəhəti dövlət qulluğunda müasir idarəetmə standartlarının tətbiqinə və beynəlxalq təcrübənin nəzərə alınmasına şərait yaratmasıdır. Bu isə dövlət aparatının daha çevik, daha səmərəli və vətəndaşyönümlü fəaliyyət göstərməsinə imkan verəcəkdir.

Hesab edirəm ki, dövlət qulluğu sisteminin davamlı inkişafı güclü dövlət quruculuğunun əsas şərtlərindən biridir. Bu baxımdan, təqdim olunan qanun layihəsi dövlət idarəçiliyinin keyfiyyətinin yüksəlməsinə, vətəndaş razılığının artmasına  və dövlət institutlarına ictimai etimadın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu səbəbdən qanun layihəsini dəstəkləyirəm və onun lehinə səs verəcəyəm.

***

Bu gün müzakirə etdiyimiz “Media haqqında” Qanuna təklif olunan dəyişikliklər yalnız hüquqi texniki xarakter daşımır. Bu dəyişikliklər sürətlə dəyişən informasiya mühitinin tələblərinə uyğunlaşmaq, cəmiyyətin etibarlı və düzgün informasiya əldə etmək hüququnu daha effektiv təmin etmək məqsədi daşıyır.

Müasir dünyada media, sadəcə, xəbər mənbəyi deyil. Media ictimai rəyin formalaşmasında, vətəndaşlara məlumat verilməsində, dövlətlə cəmiyyət arasında əlaqələrin qurulmasında mühüm rol oynayır. İnformasiya texnologiyalarının inkişafı, sosial media platformalarının geniş yayılması və xəbərlərin saniyələr ərzində milyonlarca insana çatdırılması yeni çağırışlar yaradıb. Bu çağırışlar isə qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsini zəruri edir.

Təklif olunan dəyişikliklər media sahəsində şəffaflığın artırılmasına, peşəkar jurnalistika prinsiplərinin daha da möhkəmləndirilməsinə və informasiya təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir. Eyni zamanda, bu dəyişikliklər vətəndaşların düzgün, obyektiv və etibarlı məlumat almaq hüququnun qorunmasına əlavə təminat yaradır.

Xüsusi ilə qeyd etmək istərdim ki, dezinformasiyanın və saxta xəbərlərin geniş yayıldığı bir dövrdə media sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi dövlətin və cəmiyyətin və ayrı-ayrı şəxslərin  maraqlarının qorunması baxımından vacib əhəmiyyət kəsb edir. Bu, həm də sağlam informasiya mühitinin formalaşmasına xidmət edir.

Hesab edirəm ki, təqdim olunan qanun layihəsi ölkəmizdə media institutunun daha da güclənməsinə, peşəkar fəaliyyət standartlarının yüksəlməsinə və ictimai etimadın möhkəm olmasına mühüm töhfə verəcəkdir.

Qanun layihəsini dəstəkləyirəm və onun lehinə səs verəcəyəm.

***

Bu gün ikinci oxunuşda müzakirə etdiyimiz “İctimai iştirakçılıq haqqında” Qanuna  təklif edilən dəyişikliklər ölkəmizdə vətəndaş cəmiyyətinin fəaliyyətinin daha da təkmilləşməsi, dövlət–vətəndaş

münasibətlərinin möhkəmlənməsi və qərar qəbuletmə prosesində ictimai iştirakçılıq baxımından vacib əhəmiyyət daşıyır.

Müasir dövrdə demokratik idarəetmədə əsas prinsiplərindən biri dövlət qurumlarının fəaliyyətində şəffaflığın təmin edilməsi hesabatların artırılması və vətəndaşların idarəetmədə iştirak imkanlarının genişlənməsidir. Azərbaycanda son illər bu istiqamətdə mühüm addımlar atılmış, ictimai şuraların fəaliyyəti genişlənmiş, ictimai müzakirə və ictimai dinləmə mexanizmləri daha fəal şəkildə tətbiq olunmağa başlamışdır.

Təklif olunan dəyişiklikləri də məhz bu prosesin davamı kimi qiymətləndirirəm. Burada əsas məqsədi ictimai iştirakçılıq mexanizmlərinin daha səmərəli işləməsini təmin etmək, mövcud hüquqi boşluqları aradan qaldırmaq və vətəndaşların dövlət idarəçiliyində iştirak imkanlarını genişləndirməkdir.

Bu dəyişikliklər dövlət orqanları ilə vətəndaş cəmiyyəti arasında əməkdaşlığın daha səmərəli qurulmasına şərait yaradacaq. Eyni zamanda, ictimai şuraların formalaşması, fəaliyyətinin təşkili və ictimai nəzarət funksiyalarının həyata keçirilməsinə daha aydın və çevik mexanizmlərin tətbiqinə imkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, ictimai iştirakçılıq yalnız vətəndaşların hüququ deyil, eyni zamanda, dövlət idarəçiliyinin keyfiyyətini artıran mühüm vasitədir. Vətəndaşların, qeyri-hökumət təşkilatlarının, ekspertlərin və digər maraqlı tərəflərin rəy və təkliflərinin nəzərə alınması qəbul edilən qərarların daha səmərəli və cəmiyyətin maraqlarına uyğun olmasına xidmət edir.

Xüsusi ilə rəqəmsal platformaların geniş vüsət aldığı müasir şəraitdə ictimai iştirakçılığın həyata keçirilməsi, müzakirələrin daha əlçatan olması və vətəndaşların qərar qəbuletmə prosesinə daha aktiv cəlb edilməsi

xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılması zəruridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların əsas istiqamətlərindən biri də vətəndaş məmnunluğunun təmin olunması dövlət idarəçiliyində şəffaflığı və ictimai nəzarəti gücləndirir. Təklif edilən dəyişikliklər də məhz bu siyasətin davamı olaraq dövlət və cəmiyyət arasında qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir.

Hesab edirəm ki, qanun layihəsində nəzərdə tutulan dəyişikliklər ictimai iştirakçılığı artıracaq, vətəndaşların qərarların qəbulunda iştirak imkanlarını genişləndirəcək və ölkəmizdə demokratik idarəetmə prinsiplərinin daha da inkişafına mühüm töhfə verəcəkdir. Bu baxımdan, qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsini dəstəkləyirəm.